# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XII SESSİYASI İCLASININ

# PROTOKOLU № 88

*Milli Məclisin iclas salonu.*
*12 fevral 2019-cu il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri **O.Əsədov** sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 116 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.03 dəq.) |
| İştirak edir | 112 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Vilayət Zahirov**, Azərbaycan Respublikası ədliyyə nazirinin müavini.

**Fazil Məmmədov**, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzi rəisinin müavini.

**Ruslan Osmanlı**, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin İnzibati Nəzarət İdarəsinin rəisi.

**Cəfər Zülfüqarov**, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi.

**Bahadur Kərimov**, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin aparıcı məsləhətçisi.

**Səfa Cəfərov**, Azərbaycan Respublikası Ədliyyə Nazir-

liyi Bələdiyyələrlə İş Mərkəzinin İnzibati Nəzarət İdarəsinin aparıcı məsləhətçisi.

**Təmraz Tağıyev**, Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının sədri.

**Hümbət Hüseynov**, Azərbaycan Qəsəbə Bələdiyyələri Milli Assosiasiyasının sədri.

**Əli Mehdiyev**, Azərbaycan Kənd Bələdiyyələri Milli Assosiasiyasının sədri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi haqqında.
2. "2010-cu il 18 noyabr tarixli "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında" Sazişə Xəzər dənizində mütəşəkkil cinayətkarlıqla mübarizədə əməkdaşlıq üzrə" Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.
3. "2010-cu il 18 noyabr tarixli "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında" Sazişə Xəzər dənizində terrorçuluqla mübarizədə əməkdaşlıq üzrə" Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.
4. "2010-cu il 18 noyabr tarixli "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında" Sazişə Sərhəd orqanları arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət üzrə" Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.
5. "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.
6. "Xəzəryanı dövlətlərin hökumətləri arasında nəqliy-

yat sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

7. "Xəzər dənizində insidentlərin qarşısının alınması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında..

8. "Xəzəryanı dövlətlərin hökumətləri arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

9. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Birgə Bəyanatının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

10. "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikası və Türkmənistan ərazilərindən keçməklə həyata keçirilən beynəlxalq daşımalar iştirakçıları üçün viza rejiminin sadələşdirilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

11. "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında nəqliyyat, tranzit və logistika məsələləri üzrə Azərbaycan-Türkmənistan Birgə Komissiyasının yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

12. "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

13. "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan

Respublikası qanununun layihəsi haqqında.

14. "Azərbaycan Respublikası və Türkmənistan arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkmənistanın Dövlət Gömrük Xidməti arasında" Sazişin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

15. "Gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" 1994-cü il 15 aprel tarixli Sazişdə dəyişikliklər edilməsi barədə" Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

16. "Cinayət işləri üzrə maddi sübutlar olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, odlu silahın, onun əsas hissələrinin, hərbi sursatların, partlayıcı maddələrin və partlayıcı qurğuların verilməsi qaydası haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

17. Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

18. "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

19. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

20. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların da-

yandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

21. "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

22. "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

23. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

24. "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

25. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

26. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

27. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

28. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edil-

məsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

29. “Patent haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

30. Azərbaycan Respublikasının Dövlət gerbinin istifadəsi qaydaları haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

31. Azərbaycan Respublikasının Dövlət himninin istifadəsi qaydaları haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

32. “Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Fazil Mustafa, Aydın Mirzəzadə, Əli Məsimli, Vahid Əhmədov, Hadi Rəcəbli, Elman Nəsirov, Hikmət Məmmədov, Siyavuş Novruzov, Fərəc Quliyev, Bahar Muradova

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**1. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Vilayət Zahirov, Arif Rəhimzadə, Ziyafət Əsgərov, Əli Məsimli, Siyavuş Novruzov, Qüdrət Həsənquliyev, Kamran Bayramov, Çingiz Qənizadə, Qənirə Paşayeva, Fazil Mustafa

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**2. "2010-cu il 18 noyabr tarixli "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında" Sazişə Xəzər dənizində mütəşəkkil cinayətkarlıqla mübarizədə əməkdaşlıq üzrə" Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.47 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**3. "2010-cu il 18 noyabr tarixli "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında" Sazişə Xəzər dənizində terrorçuluqla mübarizədə əməkdaşlıq üzrə" Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**4. "2010-cu il 18 noyabr tarixli "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında" Sazişə Sərhəd orqanları arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət üzrə" Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**5. "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Valeh Ələsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.50 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

**6. "Xəzəryanı dövlətlərin hökumətləri arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.51 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**7. "Xəzər dənizində insidentlərin qarşısının alınması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.52 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**8. "Xəzəryanı dövlətlərin hökumətləri arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.54 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistanın Prezidenti Qurbanqulu**

**Berdiməhəmmədovun Birgə Bəyanatının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Səməd Seyidov, Fəzail Ağamalı

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.58 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**10. "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikası və Türkmənistan ərazilərindən keçməklə həyata keçirilən beynəlxalq daşımalar iştirakçıları üçün viza rejiminin sadələşdirilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.03 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**11. "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında nəqliyyat, tranzit və logistika məsələləri üzrə Azərbaycan-Türkmənistan Birgə Komissiyasının yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.03 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**12. "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.26 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

**13. "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.04 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

**14. "Azərbaycan Respublikası və Türkmənistan arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkmənistanın Dövlət Gömrük Xidməti arasında" Sazişin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.04 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**15. "Gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 1994-cü il 15 aprel tarixli Sazişdə dəyişikliklər edilməsi barədə" Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.07 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**16. "Cinayət işləri üzrə maddi sübutlar olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, odlu silahın, onun əsas hissələrinin, hərbi sursatların, partlayıcı maddələrin və partlayıcı qurğuların verilməsi qaydası haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.09 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**17. Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Səməd Seyidov, Aydın Mirzəzadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.10 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**18. "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.15 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**19. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.15 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**20. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.16 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**21. "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.17 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**22. "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyafət Əsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.18 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**23. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Elmira Axundova, Qüdrət Həsənquliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.24 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**24. "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ülvi Quliyev, Elmira Axundova, Qüdrət Həsənquliyev, Tahir Rzayev, Qənirə Paşayeva, Cavid Osmanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.55 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**25. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Rafael Hüseynov, Əflatun Amaşov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.57 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.00 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**26. Azərbaycan Respublikasının Əmək Məcəlləsində**

**və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.02 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.02 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**27. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edil-

sin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.03 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.04 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**28. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.05 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.06 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**29. "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.07 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.07 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**30. Azərbaycan Respublikasının Dövlət gerbinin**

**istifadəsi qaydaları haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Sahib Alıyev, Gövhər Baxşəliyeva, Ziyafət Əsgərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.20 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihənin adı, preambulası, 1–4-cü maddələri qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.21 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** 5–9-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.21 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.22 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**31. Azərbaycan Respublikasının Dövlət himninin istifadəsi qaydaları haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.22 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihənin adı, preambulası, 1–4-cü maddələri qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.23 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 5–9-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.24 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.24 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**32. "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.25 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.25 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **O.ƏSƏDOV**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*12 fevral 2019-cu il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***Oqtay Əsədov*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli millət vəkilləri. Xahiş edirəm, qeydiyyatdan keçək.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.03 dəq.) |
| İştirak edir | 112 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var. İclasa başlaya bilərik.

Hörmətli millət vəkilləri, gündəlik sizə paylanıb. Xahiş edirəm, gündəliyə münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Gündəlik təsdiq edildi. Mən hesab edirəm ki, müzakirələrə yəqin yarım saat ehtiyac var. Xahiş edirəm, yazılsınlar.

Hörmətli millət vəkilləri, ilk öncə icazə verin, hamımızın adından Türkiyə Böyük Millət Məclisinin Sədri cənab Binəli Yıldırıma, Türkiyə Böyük Millət Məclisinə bizə göstərilən diqqətə görə öz dərin təşəkkürümüzü bildirək. Bildiyiniz kimi, TBMM tərəfindən Azərbaycan Cümhuriyyətinin və parlamentinin 100 illiyi ilə əlaqədar olaraq pul sikkəsi hazırlanıb və sizə təqdim edilib. Bu münasibətlə hamımızın adından öz minnətdarlığımı bildirirəm. *(Alqışlar.)*

İkinci bir məsələ. Bildiyiniz kimi, bizim həmkarımız Zahid Oruc cənab Prezidentin sərəncamı ilə Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri seçilib. Bu münasibətlə onu təbrik edək. *(Alqışlar.)*

İndi müzakirələrə başlayırıq. Fazil Mustafa.

**F.Mustafa.** Hörmətli Oqtay müəllim, hörmətli millət vəkilləri, gündəlikdə kitab və kitabxanalarla bağlı məsələ olduğuna görə mən çox vacib bir mövzuya toxunmaq istəyirəm. Bildiyiniz kimi, bu günlərdə Türkiyə Cümhuriyyətində kitablar üzərindən əlavə dəyər vergisi ortadan qaldırıldı. Bu, kitablar, jurnallar və qəzetlər üzərindən də həyata keçirildi. Bununla Türkiyədə oxuyan cəmiyyət yaratmaq ənənəsinə artıq start verildi. Bunun Azərbaycanda da edilməsi vacibdir. Ona görə yox ki, Türkiyədə edilibdir. Mən, sadəcə, düşmən Ermənistandan misal çəkərək özümüzü müəyyən dərəcədə pis vəziyyətdə qoymaq istəmirəm. Amma qonşu Gürcüstandan misal çəkərək göstərmək istəyirəm ki, artıq Gürcüstanda kitabların, mətbəə məhsullarının, ölkəyə gətirilən kitabların hamısının üzərindən əlavə dəyər vergisi, ümumiyyətlə, götürülübdür.

Çünki orada düşünürlər ki, əgər mütaliə olmasa, kitab ənənəsi ölsə, gürcü cəmiyyəti geriyə düşəcəkdir. Azərbaycan yeganə ölkələrdən biridir ki, kitablar üzərində əlavə dəyər vergisi 18 faizdir. Hətta Türkiyədə bu, 8 faiz idi, onu da götürürlər. Bu nə deməkdir? Demək, bütövlükdə dünyada, Avropanın aparıcı ölkələrində, büdcəsi ən çox kitab büdcəsi olan ölkələrdə də bu, 7-8 faizi keçmir.

Bizdə kitab statistikası aparılmır. Ölkədə nə qədər kitab istehsal olunur, nə qədər kitab satılır – bunların heç birinin statistikası yoxdur. Müraciət eləsəniz, rəsmi mənbələrdə buna rast gələ bilməyəcəksiniz. Amma bu statistika bütün ölkələrdə aparılır və toplumun nə dərəcədə mütaliə elədiyi ortaya çıxır. Ona görə də biz bu istiqamətdə ciddi, təcili addımlar atmalıyıq. Azərbaycanda kitab satışı xeyli bahalıdır. Xaricdən kitab gətirmək mümkün deyil. Üstəlik, gömrük rüsumu çox yüksəkdir. O da 9 faizə qaldırıldı və bu belə davam eləsə, kitabın həm istehsalı, həm də satışı başqa ölkələrlə müqayisədə xeyli geriyə düşəcək. Onsuz da bərbad vəziyyətdədir. Hətta Belarusla müqayisə eləsək, görərik ki, Belarusda kitab mağazalarının heç birindən kirayə haqqı belə alınmır. Niyə alınmır? Çünki bilirlər ki, kitab ənənəsi dağılsa, ölkədə savadsızlıq baş alıb gedəcək.

Bu gün biz narahatıq ki, narazı insanlardan başqa insanlar formalaşır. Bu, orta təbəqənin formalaşmasının əsas amillərindən biridir. Təsəvvür edin, nəşriyyat işçiləri, korrektorlar, redaktorlar, yazıçılar – orta təbəqə müxtəlif şəkildə formalaşır. Cəmiyyət də bu orta təbəqədən məhrum olanda, yuxarı və lümpen təbəqə qalar ki, bunların da arasında həmişə qarşıdurma fonunda cəmiyyət gərginlik içində yaşayar. Ona görə, məncə, müvafiq qurumlarımız bu istiqamətdə araşdırma aparıb, ciddi addımlar atmalıdırlar ki, kitab tamamilə vergidən azad edilsin.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə.

**A.Mirzəzadə.** Təşəkkür edirəm, Oqtay müəllim. Ötən həftə o qədər ciddi və diqqəti cəlb edən hadisələr baş verib ki, mən hesab edirəm, onların hamısı burada səsləndirilməlidir və hər birinə münasibət bildirilməlidir. Təəssüf ki, vaxt azdır. Ötən həftə Şamaxı bölgəsində zəlzələ baş verdi. Ölkə Prezidenti çox sıx iş qrafikinə baxmayaraq, birbaşa həmin bölgəyə getdi. Vətəndaşlardan biri internet saytlarında verdiyi müsahibəsində bildirdi ki, qapı döyüldü, açdım, gördüm ki, cənab Prezident mənim evimin astanasındadır. Bu bir hadisə.

Bundan başqa, Gürcüstanda yaşayan həmyerlilərimizin milli qürurumuzu qorumaq üçün Gürcüstan parlamenti qarşısında Dağlıq Qarabağ bölgəsində azərbaycanlıların qətlində iştirak etmiş bir caninin heykəlinin qoyulmasına etiraz olaraq mitinq keçirməsi, eyni zamanda, dünən şad bir xəbər aldıq, deputat həmkarımız, öz fəallığı ilə diqqəti cəlb eləyən Zahid Orucun hörmətli Prezidentimizin sərəncamı ilə yeni yaradılan bir struktura rəhbər təyin edilməsi – əlbəttə, bunları həftənin hadisələri hesab edirəm.

Hörmətli Sədr, bayaq Siz də bildirdiniz, Türkiyə parlamentinin Sədri hörmətli Binəli Yıldırımın Azərbaycan parlamentinin 100 illiyi, müstəqilliyimizin 100 illiyi ilə bağlı hər bir deputata təbrik və xoş sözlər məktubu göndərməsi, xüsusi olaraq 100 illik yubileylə bağlı xatirə pulunun buraxılması, onun göndərilməsi – bunlar Azərbaycan ilə Türkiyə arasında qardaşlığın, dostluğun dərinləşməsinin sonunun olmadığını, Türkiyə Cümhuriyyətinin daim Azərbaycanla yanaşı olduğunu, qardaşlığımızın möhkəmləndiyini göstərir. Mən xatırlamıram ki, indiyə qədər hansı isə ölkənin parlament sədri Azərbaycan parlamentinin hər bir deputatına xüsusi olaraq müraciət etsin,

öz xoş sözlərini bildirsin. Biz də buradan bayaq dediklərinizə qoşularaq Türkiyə dövlətinə uğurlar arzulayırıq. Bizim qarşılıqlı əlaqələrimiz kifayət qədər möhkəmdir. Həm parlament sədri, həm də parlamentin mütləq əksəriyyəti Azərbaycanla dostluq izhar edir, Azərbaycana məhəbbətini, dostluğunu göstərmək üçün hər bir imkandan istifadə etməyə çalışır. Azərbaycan–Türkiyə dostluğu əbədidir, bu qardaşlığımız gündən-günə möhkəmlənəcək və Azərbaycan xalqı, Azərbaycan dövləti həmişə Türkiyə dövlətinin yanında olacaq, onun sevinci sevinci olacaq, narahatlığı isə şəxsi narahatlığı kimi qəbul ediləcək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli.

**Ə.Məsimli.** Çox sağ olun, cənab Sədr. Gündəliyə xeyli vacib, maraqlı məsələlər daxil olub. Amma bu yaxınlarda baş verən bir hadisəyə münasibət bildirməmək mümkün deyil. Qeyd eləmək lazımdır ki, Prezident seçkilərindən sonra Azərbaycanda islahatların yeni bir mərhələsi başlayıb və yaxşı haldır ki, bu yeni mərhələ də istehsal sektorunda, maliyyə sektorunda, eyni zamanda, sosial sektorda baş verən islahatlarla tamamlanır. Bu o nöqteyi-nəzərdən vacibdir ki, islahatlar xalq tərəfindən dəstəklənəndə daha yaxşı nəticələr verir. Bu baxımdan fevralın 8-də Azərbaycan Prezidentinin minimum əmək haqqını 130 manatdan 180 manata, yaşayış minimumunun səviyyəsinə birbaşa çatdırmasını alqışlayırıq və çox vacib hesab edirik. Bu, bir neçə cəhətdən vacibdir.

Eyni zamanda, qeyd eləmək lazımdır ki, Azərbaycanda hazırda 1-dən 19-a qədər bölünmüş vahid tarif cədvəli fəaliyyət göstərir. Bunun əhəmiyyətini qeyd eləmək üçün xüsusi bir məqamı deyim ki, əgər köhnə tarif cədvəlində 9-cu dərəcə 182 manat idisə, indi 1-ci dərəcə 180 manat olacaq. Daha avtomatik surətdə 1-dən 19-a qədər olan

bütün tarif dərəcələri üzrə 450 min nəfərə qədər adamın əmək haqqına müsbət təsir göstərəcək. Bunu xüsusi qeyd eləmək lazımdır. Eyni zamanda, özəl sektorda 150 min nəfərə qədər adamın da əmək haqqında olan kölgə iqtisadiyyatının aradan qaldırılması istiqamətində vacib addım olacaq. Prezidentin çox gözəl olan bu təşəbbüsü hələ martın 1-dən işə düşəcək. Bu sərəncamda nəzərdə tutulan artımlara bir reaksiya verilib.

Çox təəssüflər olsun ki, son günlərdə baxıb görürük, yağın, süd məhsullarının və sair məhsulların qiymətləri qalxmağa başlayıb. Bu cür süni qiymət artımı yeni il ərəfəsində və Novruz bayramında olur. Azərbaycan Prezidenti süni qiymət artımının qarşısının alınması üçün aidiyyəti orqanlara dəfələrlə ən sərt formada göstərişlər verib. Güman edirəm, aidiyyəti strukturlar bu iki gözəl təşəbbüsün də məhz həmin artımın əhalinin güzəranının yaxşılaşmasına, xüsusən də aztəminatlıların vəziyyətinin yaxşılaşmasına xidmət etməsi üçün, hansısa inhisarçıların, işbazların vətəndaşlar vasitəsi ilə dövlətdən alınıb onlara ötürülmə mexanizminə çevrilməməsi üçün, martda Novruz bayramını bəhanə edib süni qiymət artımının qarşısının alınması üçün tədbirlər görsünlər. Bir daha alqışlayıram, bu, çox vacib bir addımdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov.

**V.Əhmədov.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, Əli müəllim bir məsələni qeyd etdi, mən isə digər məsələlərə toxunmaq istərdim. Bilirsiniz ki, son vaxtlar Azərbaycanın dövlət başçısı Azərbaycanda iqtisadi islahatların, institusional islahatların həyata keçirilməsi üçün çox ciddi addımlar atır. Xüsusilə də son vaxtlarda onun şəhid ailələri ilə görüşməsi, uzun müd-

dətdir, müzakirədə olan şəhid ailələrinə ödənişin həyata keçirilməsi ilə əlaqədar verdiyi göstərişlər, hətta şəhid ailələrinin sənədləri olmadan da ödənişlərin həyata keçirilməsi, əlbəttə, müsbət hal kimi qiymətləndirilməlidir. Yəni bu bizim çoxdan gözlədiyimiz bir məsələ idi. Milli Məclisə də bununla əlaqədar çoxlu müraciətlər olur.

İkinci məsələ, Əli müəllim burada qeyd elədi, minimum əmək haqqının yaşayış minimumuna çatdırılmasıdır. Əlbəttə, bu çox müsbət haldır və mən bunu alqışlayıram. Belə hesab edirəm ki, artıq ehtiyac meyarını da yaşayış minimumuna çatdırmanın vaxtıdır.

Ən ciddi məsələlərdən biri olan əmanətlərin tam sığortalanması idi ki, bu məsələ Milli Məclisdə bir neçə dəfə qaldırılıb. Cənab Prezident Əmanətlərin tam sığortalanması haqqında qanun layihəsini artıq Milli Məclisə göndərib və yaxınlarda baxılacaq. Yəni bu, əmanətlərin tam sığortalanması bank sistemində sağlamlaşdırma prosesinin həyata keçirilməsi, eyni zamanda, bankların normal işləməsi, əhalinin, ümumiyyətlə, əmanətlərindən arxayın olması üçün çox böyük əhəmiyyət kəsb edir. Onu da nəzərə çatdırmaq istəyirəm ki, banklarda olan əmanətlərin təxminən 42 faizi 3 ilə qoyulan əmanətlər idi və insanlar belə bir qanunun qəbul edilməsini səbirsizliklə gözləyirdilər. İnanıram ki, biz növbəti iclaslarımızda bu qanunu qəbul edəcəyik.

Narahat edən məsələlərdən biri də, belə hesab edirəm ki, dollarla olan kreditlərdə güzəştlərin edilməsidir. Yəqin ki, cənab Prezident bu məsələyə də öz mövqeyini bildirər. İnsanların bu məsələdə çox ciddi problemləri olduğu üçün biz cənab Prezidentdən xahiş edərdik ki, bu məsələyə də baxsın. Çünki hazırda məhkəmələrdə bu məsələ ilə əlaqədar faktiki olaraq 200 minə qədər iş var. Dollarla

olan kreditlərin qaytarılması üçün mənim və həmkarım Əli Məsimlinin də xüsusi təklifləri var ki, bu təkliflər müəyyən təşkilatlara, dövlət orqanlarına çatdırılıb. Cənab Prezidentdən o təkliflərə də baxmağı xahiş edərdim. Ümumiyyətlə, mən hesab edirəm, cənab Prezidentin son vaxtlarda verdiyi fərmanlar, sərəncamlar, xüsusən də insanların sosial həyatına münasibəti, diqqəti alqışlanmalıdır və diqqətə layiqdir. Hesab edirəm ki, yerlərdə də yerli icra hakimiyyəti orqanları cənab Prezidentin verdiyi bütün tapşırıqları həyata keçirməli, əhali ilə münasibətləri elə qurmalıdırlar ki, dövlət başçısının verdiyi fərmanlar, sərəncamlar öz müsbət nəticələrini versin.

**Sədrlik edən.** Çox sağ olun. Hadi Rəcəbli.

**H.Rəcəbli.** Hörmətli cənab Sədr, hörmətli deputat həmkarlarım, sözün əsl mənasında, Azərbaycanda elə bir həftə yoxdur ki, möhtərəm cənab Prezidentimiz tərəfindən xalqın mənafeyinə xidmət eləyən bu və ya digər fərman və sərəncamlar imzalanmasın. Görülən işlərin son məqsədi, başlıca məqsədi Azərbaycan vətəndaşının güzəranının yaxşılaşdırılmasıdır. Belə addımlardan biri və deyərdim ki, inqilabi bir addım Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq möhtərəm Prezidentimizin minimum əmək haqqının yaşayış minimumuna uyğunlaşdırılması ilə bağlı 8 fevral tarixli sərəncamıdır. Bu sərəncamla əhalinin böyük bir hissəsi – 450 min muzdlu işçi, qeyri-dövlət strukturlarında çalışan 150 min nəfər vətəndaş əmək haqlarında hiss olunan dərəcədə fərq görəcəklər. Beləliklə, əgər diqqət yetirsək, 130 manat minimum əmək haqqı 180 manata çatdırılıb. Bu da 38,5 faiz edir. Bu, yenə deyirəm, müstəqillik dövründə ilk addımdır. Bu addım, eyni zamanda, gələcəkdə görüləcək işlərin təməlini qoyur, yəni yaşayış minimumu ilə minimum əmək haqqının üst-üstə

düşməsi bizə imkan verir ki, gələcəkdə də əmək haqlarının artırılmasında addımlar atılsın.

Bir məsələni diqqətinizə çatdırmaq istəyirəm, bəzən buna aydınlıq gətirilmir. Söhbət ondan gedir ki, təkcə minimum əmək haqqı deyil, eyni zamanda, vahid tarif cədvəlinin 19 qrafasının böyük bir hissəsində də bu dəyişikliklər aparılıb. Yəni o qrup insanlarda da əmək haqları əlbəttə, kəskin deyil, amma hiss olunan dərəcədə dəyişiləcək. Mən kiçik bir statistika gətirmək istəyirəm, Oqtay müəllim. Məndə bu illər üzrə statistika var. 2007-ci ildə Azərbaycanda yaşayış minimumu 64 manat idi, amma minimum əmək haqqı 50 manat idi. Bütün illərin belə müqayisəsi var. Məsələn, 2017–2018-ci illərdə yaşayış minimumu 173 manat, amma minimum əmək haqqı 116 manat idi. Beləliklə, burada fərqi görürük. Amma möhtərəm Prezidentimiz çox cəsarətli, sözün əsl mənasında, maliyyə tutumlu bir addım atdı və minimum əmək haqqı 180 manata çatdırıldı. Dediyim kimi, vahid əmək haqqı cədvəlinin 19 qrafasının, demək olar, böyük əksəriyyətində də dəyişikliklər aparıldı.

Burada başqa bir məqama da toxunmaq istəyirəm. Bəzən bunu son günlərdə gedən proseslə əlaqələndirmək, yada salmaq istəyirəm. Oqtay müəllim, bir dəqiqə əlavə vaxt versəniz, fikrimi deyərəm. Möhtərəm Prezidentimizin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli fərmanı...

**Sədrlik edən.** Mikrofon verin.

**H.Rəcəbli.** Oqtay müəllim, bu fərmanla “Azərbaycan 2020: gələcəyə baxış” adlı böyük bir proqram nəzərdə tutulub və bu proqram ilə ardıcıl olaraq işlər aparılıb. Əgər biz maliyyə tutumuna baxsaq, 25 il əmək stajının bəxşiş edilməsi, yəni 2006-cı il yanvarın 1-nə qədər bunun maliyyə tutumunu hesablasaq, görün, nə qədər böyük məsələdir.

Digər bir addım. Oqtay müəllim, biz bəzən unuduruq. Azərbaycanda sosial müdafiə məqsədlərinə ayrılan vəsaitlərin həcminə diqqət yetirək: əgər bizdə qaçqın-köçkün problemləri olmasa idi, bu gün müharibə şəraitində olan dövlətdə orduya xərclənən vəsaitləri, digər xərcləri yarıbayarı sosial müdafiə məqsədlərinə yönəldə bilsə idik, görün, nə qədər böyük rəqəmlər olardı. Bu ardıcıllıq Azərbaycanda davam edir. Mən yenə sadalamaq istəmirəm. Məsələn, şəhid ailələrinə verilən 58 manat müavinət artırıldı, 242 manatdan 300 manata çatdı. 11 min manatın böyük bir qrup insana şamil edilməsi, vergi güzəştləri, sığortada edilən güzəştlər, bu qrup güzəştlərin hamısı son nəticədə xalqın xeyrinədir.

Mən başqa bir şeyi demək istəyirəm. Biz bəzən manat ilə olan müavinəti birbaşa qavraya bilirik, amma ölkədə gedən məktəb tikintisi, xəstəxana tikintisi, yolların çəkilişi – bunlar dövlət rəhbərinin atdığı addımlardır ki, hamısı məhz xalqa xidmət edir. Mən fikrimi onunla yekunlaşdırmaq istəyirəm ki, zaman-zaman bu cür addımlar atılıb. Dediyim kimi, 2012-ci ildən başlayaraq sistem şəklində olub. 2016-cı ildən bizdə baş xətt yenə sosial müdafiədə məşğulluğa çevrilib, özünüməşğulluq sistemi yaradılıb, özəl bölməyə dəstək var, kiçik və orta sahibkarlıq inkişaf edir və bunlar da son nəticədə yenə də insanların rifahına xidmət edir. Ona görə mən bir daha bizim xalqımızın böyük qrupu adından, eyni zamanda, deputat həmkarlarımın adından möhtərəm Prezidentimizə minnətdarlığımı bildirirəm ki, belə kəskin, ciddi, hiss olunan addım atdı və hər bir ailəyə ən az 50 manat vəsaitin daxil olmasına şərait yaratdı. Prezidentə minnətdarıq. Sağ olun.

**Sədrlik edən**. Sağ olun. Elman Nəsirov.

**E.Nəsirov**. Hörmətli millət vəkilləri, bu anlarda, bizim

iclas keçirdiyimiz bu dəqiqələrdə Ermənistan parlamentində ölkəni düşdüyü iqtisadi fəlakətdən xilas etmək məqsədi ilə "İqtisadi inqilab proqramı" deyilən beş illik proqramın müzakirəsinə başlayıblar. Həmin proqrama görə, Ermənistan il ərzində orta hesabla təqribən 5 faiz iqtisadi artıma nail olmalıdır. Amma artıq Ermənistanın özündə bu təklif, bu proqram çox ciddi tənqid olunmaqdadır ki, ümumiyyətlə, investisiya mühitinin olmadığı bir dövlətdə hansı iqtisadi potensialla, hansı resurslarla iqtisadi inqilab eləmək mümkündür. Eyni zamanda, erməni ekspertləri bunun cavabını verirlər ki, yəqin bu, Azərbaycanın dövlət başçısının işğalçı Ermənistana münasibətdə tətbiq etdiyi "taqətdən salma siyasəti"nin nəticəsində baş verməkdədir. Yəni iqtisadi və nəqliyyat blokada siyasəti artıq Ermənistanda öz təsirini göstərməkdədir və belə olan vəziyyətdə bu gün Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı yeni vəziyyətin yaranması haqqında da fikirlər səslənməkdədir. Əsas fikirlərdən biri də budur ki, Paşinyan tələsik 5 illik "İqtisadi inqilab" deyilən bir layihəni, proqramı həyata keçirmək üçün ilk növbədə o blokada vəziyyətindən çıxmalıdır. Bunun üçün isə Ermənistan məhz Azərbaycan və Türkiyə ilə sərhədlərin açılışına nail olmalıdır. Bu isə necə mümkündür? Ancaq Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə. Bu gün erməni mətbuatını diqqətlə izləsək, görərik ki, onlar təhlillər aparırlar, məhz belə qiymət verirlər ki, bu reallığı dərk eləyən Paşinyan artıq ölkə daxilində "əcinnə ovu"na çıxıb.

Yanvar ayının 18-də Koçaryanın həbs müddətinin daha iki ay uzadılması, Serj Sarkisyanın 1 may hadisələri ilə bağlı istintaqa cəlb edilməsi, hətta belə fikirlər var ki, mart ayının 1-nə qədər onun həbsi reallaşa bilər, eyni zamanda, Paşinyanın Bako Saakyana barmaq silkələməsi onu gös-

tərir ki, biz yaxın zamanlarda Ermənistanda Qarabağ klanı və bu klana daxil olmayan qüvvələr arasında real mübarizənin şahidi ola bilərik. Bu baxımdan istisna deyil ki, Ermənistanın indiki hakimiyyəti müəyyən mənada münaqişənin həlli ilə bağlı tutduğu əvvəlki mövqeyindən bir az geri çəkilsin. Lakin bu, bir həmlədir. Əslində, Paşinyan çox gözəl dərk eləyir ki, münaqişənin həlli ilə bağlı güzəştlər labüddür və hesab edirəm, bu gün Ermənistan parlamentində müzakirə olunan 5 illik proqramı qəbul etməkdə əsas məqsəd odur ki, artıq Azərbaycan və Türkiyə ilə münasibətlərə yenidən baxmağın vaxtı gəlib çatıb.

**Sədrlik edən**. Sağ olun. Hikmət Məmmədov.

**H.Məmmədov**. Hörmətli Sədr, hörmətli millət vəkilləri, yalnız bir millət, iki dövlət fəlsəfəsi ilə yaşayan qardaş ölkənin parlament rəhbəri belə diqqət göstərib bu cür təltif edə bilərdi ki, biz bunun şahidi olduq və bunu böyük qürurla qəbul edirik.

Hazırda beynəlxalq münasibətlərdə çox mürəkkəb bir mərhələdən keçirik və heç şübhəsiz ki, bu, dövlətlərarası münasibətlərdə də yeni keyfiyyət dəyişikliyi yaradır. Bu prosesdə biz yeni bir hadisənin təntənəsinin şahidi oluruq. Əlbəttə, “netokratiya” – “şəbəkə hakimiyyəti” adlandırılan yeni bir hakimiyyət növünün milli dövlətlər üzərində təcrübədən keçirilməsi və “qlobal dövlət” adlandırılan dövlətdə məhz milli dəyərlərdən uzaq, yeni formalaşmış, yeni informativ əsaslarda formalaşmış vətəndaşların identifikasiyası prosesi gedir. Bu, uzunmüddətli bir prosesdir və artıq başlayıb. Bu mərhələdə, heç şübhəsiz ki, milli dövlətlərdir, milli maraqlardır. Prosesin birinci mərhələsi dəyərsizləşdirmə ilə, mənəviyyatsızlaşdırma ilə başlayır. İkinci mərhələ lidersizləşdirmə mərhələsidir və sonda hədəf dövlətsizləşdirmə mərhələsinə qədər gəlib çatır. Ona

görə düşünürəm, çox geniş və ətraflı detalları müzakirə etmədən bir məsələni vurğulamaq lazımdır ki, biz azərbaycanlıyıq, harada yaşamağımızdan, hansı peşə ilə məşğul olmağımızdan, hansı siyasi dünyagörüşünün daşıyıcısı olmağımızdan asılı olmayaraq, bizim hər birimizin ən ümdə vəzifəsi vətəni, dövləti qorumaqdır. Ona görə də mən düşünürəm ki, son dövrlərdə müşahidə etdiyimiz dəyərsizləşdirmə və mənəviyyatsızlaşdırma tendensiyasına son qoymaq bütün azərbaycanlıların harada yaşamasından və hansı siyasi dünyagörüşün daşıyıcısı olmasından asılı olmayaraq, ümdə borcudur.

Burada mənim hörmətli həmkarlarım Azərbaycanın çap mediasının vəziyyətinə və Azərbaycanda kitab oxunması məsələsinə toxundular. Mən düşünürəm ki, Azərbaycan Prezidenti Azərbaycan milli mətbuatının böyük hamisidir, böyük dostudur və bu günə qədər çap mediası Azərbaycanda varsa, buna görə Azərbaycan Prezidentinin himayəsinə borcludur, bundan sonrakı mərhələdə də çap mediasının yaşaması üçün hamıdan çox Azərbaycan Prezidenti narahatdır və lazım olan addımları atacaqdır. Hazırda informasiya cəmiyyətində informasiyanın əldə edilməsi, bölünməsi üçün yeni mərhələ baş verir və bu prosesdə də çap mediası, düşünürəm ki...

**Sədrlik edən**. Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli deputatlar, mən də həmkarlarımın toxunduğu məsələlərə toxunuram. Cənab Prezident tərəfindən həyata keçirilən sosial-iqtisadi islahatlar, əhalinin güzəranının yaxşılaşdırılmasına doğru atılan addımlar çox təqdirəlayiqdir və bunun əsas fəlsəfəsi ondan ibarətdir ki, cənab Prezident həm xidmətin, həm də təminatın yaxşılaşdırılması ilə bağlı addımlar atır. Elə ola bilər ki, xidmət yaxşı olar, təminat

olmaz, yaxud təminat olar, xidmət olmaz. Bu iki strategiyanın birgə inkişafı bu gün Azərbaycan xalqının maraqlarına bilavasitə xidmət edir, əhalinin sosial problemlərinin həll olunmasına, iqtisadiyyatımızın inkişafına, yeni iş yerlərinin açılmasına, cəmiyyətimizin dövlətlə birgə addımlamasına xidmət göstərir.

Amma əfsuslar olsun ki, biz cənab Prezidentin atdığı addımları əhaliyə lazımınca çatdıra bilmirik və onların diqqətini bu məsələlərə yönəldə bilmirik. Cənab Sədr, misal üçün, cənab Prezident şəhid ailələrinin məsələləri ilə əlaqədar tapşırıq vermişdi ki, bunlar araşdırılsın. Bir məsələ araşdırılmamış, onun həll edilməsi mümkün deyil. Bu məsələ araşdırılıb təqdim olunandan sonra çox böyük addım atıldı və həm şəhid polis ailələrinə, həm də digər şəhid ailələrinə 35 milyondan artıq vəsait ayrıldı. Elə şəhid ailələri vardır ki, o təminatı vaxtında almışdılar, sonra bunun yenidən indeksasiya olunması ilə əlaqədar məsələ həll edildi. Əhalini aldatmaq istəyən, əleyhimizə işləyən bir qrup qüvvələr bu məsələni öz adlarına çıxarmağa çalışırlar ki, guya onlar mitinq keçirdilər və mitinqin nəticəsi olaraq da cənab Prezident bu addımı atdı. Halbuki dövlət başçısı çoxdan bu məsələ ilə bağlı tapşırıq vermişdi və araşdırmalar aparılırdı. Yaxud minimum əmək haqqının artırılması ilə də əlaqədar tapşırıq verilmişdi. Maliyyə Nazirliyində araşdırmalar aparıldı. Bu məsələyə hələ büdcə müzakirələri zamanı toxunulmuşdu. Bu proseslər gedirdi və son nəticədə araşdırılıb bütün dünya ölkələrinin təcrübəsi öyrənildikdən sonra, müvafiq cəhətlərə uyğun gəldikdən sonra bu addımlar atıldı. Bu gün əhalinin böyük hissəsi bu vəsaitlə tam təmin olunmağa başlayıb. Xaricdə oturan və bu gün böhtan, şər kampaniyası aparan bir qrup adam bunları yenə öz adlarına

çıxarmağa, əhalini çaşdırmağa çalışırlar. Oqtay müəllim, mümkün olsa, bir dəqiqə əlavə...

**Sədrlik edən.** Mikrofon verilsin.

**S.Novruzov.** Hesab edirəm, bununla əlaqədar Milli Məclisin deputatları da yerlərdə keçirilən illik hesabatlarda, müxtəlif görüşlərdə, seçicilərlə görüşlərlə əlaqədar rayonlara səfərlərində bu məsələləri insanlara çatdırmalıdırlar ki, həmişə olduğu kimi, məsələn, bir zəlzələ baş verən kimi cənab Prezident dərhal orada olur. Hələ xatırlayırsınızsa, 2003-cü ildə yeni Prezident seçilən zaman Lənkəranda bir zəlzələ baş vermişdi və bir bina uçmuşdu. Cənab Prezident ilk olaraq oraya getdi. Mən hələ 2019-cu ili demirəm.

O, hər an hamıdan öncə bu məsələlərə reaksiya verir və mövcud problemlərin aradan qaldırılması üçün tapşırıqlar verir. Biz bunun şahidiyik. Qaçqınların ev məsələlərinin həll olunması, Qarabağ əlillərinə yenidən evlərin verilməsi, şəhid ailələrinin evlərlə təmin olunması, bütün sosial, iqtisadi sahələrə nəzər salaq, gənclərin təminatı, onların irəli çəkilməsi, onlara müxtəlif dövlət vəzifələrinin tapşırılması və etibar olunması bu gün cənab Prezidentin əsas strateji proqramlarından biridir. Hesab edirik ki, hər birimiz bir əsgər kimi bu məsələləri istər mətbuat orqanlarında, istər internetdə, istərsə də fərdi görüşlərdə ictimaiyyətin diqqətinə lazımi səviyyədə çatdırmalıyıq, başa salmalıyıq. İnsanlara izah etməliyik ki, bunlar dövlətin strategiyasıdır, Prezidentin strategiyasıdır. Bu kiminsə dövlət başçısına, dövlətə göstərdiyi təzyiqin...

**Sədrlik edən**. Fərəc Quliyev. İki nəfər həmkarımız da çıxış etsin. Sonra gündəliyə başlayaq.

**F.Quliyev**. Sağ olun, Oqtay müəllim. Hörmətli Sədr, hörmətli həmkarlar, yəqin ki, sizə də Dilqəm bəylə, Şah-

baz bəylə bağlı müraciətlər daxil olur. Hərçənd belə müraciətlərin heç əsası yoxdur, yəni bizə müraciətlər eləməyə ehtiyac yoxdur, biz həmişə belə məsələlərlə məşğul oluruq. Bizim nümayəndələr də müxtəlif instansiyalarda məsələlər qaldırırlar. Mən Azərbaycandan saxta siyahılar düzəldib göndərən qeyri-hökumət təşkilatlarına müraciət eləmək istəyirəm ki, burada rüşvətxorları, cinayətkarları "siyasi məhbus" adı altında Avropa təşkilatlarına göndərmək əvəzinə, Dilqəm bəylə, Şahbaz bəylə bağlı təbliğatlar aparmaq lazımdır. Güney Azərbaycanda 40 milyon insanımızın dili, mədəniyyəti uğrunda mübarizə aparan Abbas Lisani kimi onlarca insanın  hüquqlarının pozulması ilə əlaqədar siyasi məhbus siyahıları tərtib eləyib Avropa təsisatlarına göndərmək lazımdır.

Yeri gəlmişkən, bildirim ki, iki gün əvvəl  fevralın 10-da Türkmənçay müqaviləsinin 191-ci ili tamam oldu. Mən burada 2011-ci ildə də bu məsələ ilə bağlı  çıxış eləmişdim. Bunu niyə xüsusi olaraq vurğulayıram? Bu müqavilə artıq çoxdan qüvvədən düşüb, çünki 1921-ci ildə İran və Sovet hökuməti arasında bağlanan müqaviləyə görə, indiyə qədər imzalanmış müqavilələrə xitam verilir və onlar qüvvədən düşürlər. Bundan sonra beynəlxalq müqavilələrdə də bu, təsbit olunub. Məsələn, 1978-ci ilin Vyana konvensiyasının "Dövlətlərin varisliyi haqqında" 2.1-ci maddəsində "yeni müstəqil dövlətlər" deyilən bir termin ortaya atılır. Bu müstəqil dövlət ərazi dövlətin varisliyi anından bilavasitə əvvəl asılı ərazi olmuş, beynəlxalq münasibətlərə görə, əvvəlki dövlətin məsuliyyət dasıdığı varis dövlət başa düşülür. Təmiz lövhə prinsipi şamil olunur. Həmin prinsipə görə isə yeni müstəqil dövlət əvvəlki dövlətin, yəni əvvəl müstəmləkə asılılığında olduğu dövlətin iştirakçısı olduğu beynəlxalq müqavilələrdən

azaddır. Daha doğrusu, onun üzərində bu müqavilələri qüvvədə saxlamaq vasitəsi və vəzifəsi yoxdur. Həm İran, həm də Rusiya arasında Rusiya imperiyasının işğalına verilmiş, indi İrəvan xanlığı və Zəngəzur istisna olmaqla, bu ərazilərdə qurulmuş azəri respublikası da BMT tərəfindən bütün dövlətlər kimi bu iki dövlət tərəfindən tanınıb.

Mən niyə buna xüsusi olaraq toxunuram, çünki bu müqavilə qüvvəsini itirib və biz bunu rəsmən tanımırıq. Bu, öz yerində. Amma əslində tanınmalıdır və bunu əsas götürərək orada olan 40 milyon insanımızın taleyinə biganə qala bilmərik. Azərbaycan Prezidenti də özünü 50 milyonluq xalqın prezidenti elan edir və doğru da edir. Oradan – Güney Azərbaycandan bizə müraciətlər edilir ki, bura bizim ocağımızdır, güvəndiyimiz yerdir, orada biz dilimiz uğrunda, mədəniyyətimiz uğrunda savaş aparanda meydanda tək qalırıq. Mən hesab edirəm ki, biz İran dövlətinə, müəyyən strukturlarına müraciət eləyib orada həbsdə olan insanların azad olunması ilə bağlı çağırış edə bilərik. Ən azından burada tribunadan, mətbuatda və deyək...

**Sədrlik edən**. Sağ olun. Bahar Muradova buyursun, sonra müzakirələri bitirək.

**B.Muradova**. Təşəkkür edirəm, cənab Sədr. Mən də, cənab Sədr, Sizə və həmkarlarıma qoşularaq Türkiyə Böyük Millət Məclisinin rəhbəri cənab Binəli Yıldırıma Azərbaycana, Azərbaycanın tarixinə və bu günümüzə verdiyi dəyərə görə öz dərin təşəkkürümü bildirmək istəyirəm. Elə bu yaxınlarda bizim keçirdiyimiz yubiley tədbiri və bu istiqamətdə hələ də davam edən çoxsaylı tədbirlər, tariximizə baxışlar bizi bir məsələyə diqqət yönəltməyə bir daha vadar edir. Azərbaycanın ən azı son 100 illik dövlətçilik tarixini götürsək, görərik ki, onun bütün məqamlarında Azərbaycanın və Azərbaycan xalqının əsas

gündəm məsələsi müstəqil, ayaqda duran dövlət və bu dövlətin yaratdığı şərait çərçivəsində azad, sərbəst və rifah içərisində yaşayan bir vətəndaş cəmiyyəti qurmaq idisə, bizim əleyhdarlarımızın məqsədi bu gündəmi dəyişmək, bizim müəyyənləşdirdiyimiz bu gündəmə heç bir aidiyyəti olmayan məsələləri sırımaq, diqqəti bu əsas məqsəddən, Azərbaycan dövlətini qüdrətli bir dövlətə çevirmək istiqamətindən bizi yayındırmaq niyyətləri olmuşdur. Bu günümüz də belədir.

Mən bu gün həmkarlarımın  müxtəlif məsələlərlə bağlı narahatlıqlarını dinləyərkən yenə də xatirimə həmin tarix, o tarixin əsas problemli məsələsi olan Dağlıq Qarabağ məsələsi gəlir ki, bu da təsadüfi deyil. Ötən ilin sonundan və bu ilin əvvəlindən danışıqlar prosesində müəyyən hərəkətlənmə müşahidə olunmaqda idi. Həm beynəlxalq təşkilatların vasitəçi nümayəndələri, həm də ayrı-ayrı ölkələr, həmsədr ölkələrin bəyanatları, xüsusilə də iki ölkənin – Ermənistan və Azərbaycan prezidentlərinin bəyanatlarında əksini tapan məqamlar  müəyyən qədər ümidlənməyə imkan verirdisə, məsələni ölü mövqedən tərpətməyə imkan verəcəyini düşünməyə əsas verirdisə, ortaya çıxan bu meyillər də bizi bunun üzərində bir daha düşünməyə vadar edir ki, bəli, biz bu məsələni nə qədər həll etmək iqtidarımızı və qüdrətimizi artırırıqsa, bunun qarşısını almaq istəyən dairələr də o qədər səylərini və cəhdlərini artırmaqdadırlar.

Azərbaycan dövlətinin öz vətəndaşının yanında olması heç zaman şübhə doğurmayıb, bu, ardıcıl, məqsədyönlü bir siyasətdir və biz bunun içərisindəyik, bunun əksini söyləyənlər də bunu görürlər. Amma təbii ki, məqsəd başqadır. Deməli, əsas məqsəd gündəmi dəyişməkdir, bizi qarşımızda duran ən vacib niyyətdən, məqsəddən yayın-

dırmaqdır. Ona görə çox xahiş edərdim ki, biz bu səyləri göz önünə alaraq, yəni nəzərdə tutaraq diqqətimizi əsas məqsədimizə, beynəlxalq təşkilatlar çərçivəsində ikitərəfli və çoxtərəfli əsasda bu məsələnin həllinə, Azərbaycanın artan iqtisadi və hərbi qüdrətinin qarşısında və bunun da əsas digər parametri kimi çıxış edən ölkə vətəndaşlarının sosial durumunun dövlətin daim diqqətində olduğunu göstərən siyasəti nəzərə alaraq bütün bunların da vahid məqsədə, Dağlıq Qarabağ məsələsinin həllinə və danışıqlar prosesinin irəliləməsinə yönəltməyə çağırıram. Hesab edirəm ki, bütün məqamlarda məqsəd bu olmalıdır. Bizi bu niyyətdən yayındıran dairələrin cəhdlərinə heç zaman uymamalı və mövqeyimizi yalnız bu istiqamətə yönəltməliyik. Hesab edirəm ki, Azərbaycanın artan gücü, bax, belə dairələri bu cür narahat məsələləri gündəmə gətirməyə vadar edir. Ona görə də bu gücdən, qüvvədən qürur duyaraq ölkə Prezidentinin müəyyən etdiyi və apardığı cəsarətli siyasətin yanında olmalıyıq. Hesab edirəm ki, gündəliyimizə keçə bilərik, sağ olun.

**Sədrlik edən**. Sağ olun. Doğrudan, gündəlikdə 32 məsələ var. Gündəliyə başlayaq. Gündəliyin 1-ci məsələsi Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsidir. Buyursun ədliyyə nazirinin müavini hörmətli Vilayət Zahirov.

**V.Zahirov**, *Azərbaycan Respublikası ədliyyə nazirinin müavini.*

Hörmətli cənab Sədr, hörmətli deputatlar! Azərbaycan Respublikası Konstitusiyasının, “Yerli özünüidarəetmə haqqında” Avropa Xartiyasının müddəaları nəzərə alınmaqla, “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə müvafiq olaraq inzibati nəzarətlə bağlı 2018-ci il üzrə

illik məruzə diqqətinizə təqdim olunur. Yola saldığımız 2018-ci il ölkəmiz üçün çox uğurlu olmuşdur. Ötən il bir çox ictimai-siyasi, tarixi hadisələrlə, iqtisadiyyatda davamlı inkişaf, tərəqqi ilə yadda qalmışdır. 2018-ci il aprelin 11-də şəffaf və demokratik şəraitdə keçirilmiş prezident seçkilərində cənab İlham Əliyevin parlaq qələbə qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi xalqımızın ulu öndər Heydər Əliyevin siyasi kursuna yüksək inamını və etimadını, iqtidarla xalqın birliyini nümayiş etdirdi. Ötən il ümummilli lider Heydər Əliyevin 95 illik yubileyi, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi, Azərbaycan parlamentinin, bir çox dövlət qurumlarının, o cümlədən Azərbaycan ədliyyəsinin 100 illiyi də yadda qalan tarixi hadisələrdəndir.

Dünyada və bölgəmizdə gedən proseslərdən, çətin və mürəkkəb geo-siyasi şəraitdən asılı olmayaraq, Azərbaycan uğurla inkişaf etmiş, ictimai-siyasi sabitlik təmin edilmiş, iqtisadiyyatda tərəqqi davamlı olmuş, bir sıra beynəlxalq və yerli əhəmiyyətli mühüm infrastruktur layihələri icra edilmiş, ölkəmiz bir çox möhtəşəm tədbirlərə ev sahibliyi etmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, Dünya Bankının “Doing business 2019” hesabatında Azərbaycan ötən illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış və dünyanın 10 ən islahatçı dövləti sırasına daxil edilmişdir. Əldə olunan bu böyük uğurlar ölkə Prezidenti cənab İlham Əliyevin davamlı olaraq həyata keçirdiyi düşünülmüş, məqsədyönlü siyasətinin və yorulmaz fəaliyyətinin nəticəsidir. Ölkəmizdə qanunçuluğun möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının qorunması, idarəetmə sistemində səmərəliliyin artırılması istiqamətində ardıcıl tədbirlər görülmüşdür.

Dövlət idarəçiliyində öz yeri olan bələdiyyələrin inkişaf

məsələləri də daim diqqət mərkəzində saxlanılaraq yerli özünüidarənin təkmilləşdirilməsi üçün bir sıra qanunlara dəyişiklik edilmiş, yeni normativ hüquqi aktlar qəbul olunmuş, bələdiyyələrin işinin təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilmişdir. Belə ki, "Bələdiyyələrin su təsərrüfatı haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında", "Bələdiyyələrin statusu haqqında", "Torpaq islahatı haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" qanunlara, Torpaq Məcəlləsinə və bir sıra başqa qanunvericilik aktlarına zəruri dəyişikliklər edilmişdir. 2018-ci il fevralın 13-də "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanuna edilmiş dəyişikliyə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2018-ci il 26 sentyabr tarixli qərarı ilə bələdiyyələrin yazılı və ya elektron sorğuları əsasında daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının verilməsi qaydası və bununla bağlı ödənişin miqdarı təsdiq olunmuşdur. Bu qaydalar vergiyə cəlb edilən daşınmaz əmlak və onun mülkiyyətçiləri barədə bələdiyyələrin məlumatlar almaq imkanını reallaşdıraraq əmlak vergisi ödəyicilərinin uçotunun aparılmasında və verginin toplanması işində onların imkanlarını artırmışdır.

2018-ci il 29 iyun tarixli "Məşğulluq haqqında" Qanunda məşğulluq sahəsində yerli özünüidarə orqanlarının iştirakı ilə bağlı məsələlər də tənzimlənərək bələdiyyələr üçün bir sıra hüquq və vəzifələr müəyyən edilmişdir. Belə ki, bələdiyyələrə iş axtaran və işsiz şəxslər üçün haqqı ödənilən ictimai işlərin təşkil edilməsi, yerli sosial müdafiə və sosial inkişaf proqramlarında əhalinin məşğulluğuna köməklik göstərilməsi ilə bağlı əlavə təminatları nəzərdə tutan hüquqlar verilmiş, ailə kəndli təsərrüfatlarının uçota alınması və bununla bağlı müvafiq orqana məlu-

mat verilməsinə dair bələdiyyələrin üzərinə vəzifələr qoyulmuşdur.

Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli Qanunu ilə "Bələdiyyələrin statusu haqqında" Qanuna edilmiş dəyişikliklə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2018-ci il 4 dekabr tarixli qərarı ilə qəbiristanlıqların salınması və idarə olunması qaydaları təsdiq edilmişdir. Qərara görə, yerli icra hakimiyyəti orqanları qəbiristanlıqları aidiyyəti bələdiyyələrə təhvil verməlidirlər. Bu işlərin qanunauyğun və vaxtında yerinə yetirilməsinə metodik kömək göstərmək məqsədi ilə bələdiyyələrə müvafiq tövsiyələr göndərilmişdir.

Ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin Tədbirlər Planında nəzərdə tutulan bələdiyyələrin kəndin sosial-iqtisadi inkişafı ilə bağlı öhdəliklərinin artırılmasına dair tədbirlərin icrası ilə bağlı bir sıra maarifçilik tədbirləri həyata keçirilmiş, kəndin inkişaf modelinin yaradılması ilə 7 pilot bələdiyyə seçilmiş, İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin, aidiyyəti yerli icra hakimiyyəti orqanlarının və bələdiyyələrin təklifləri öyrənilərək onların nümayəndələrinin və ekspertlərinin iştirakı ilə keçirilən iclasda zəruri qərarlar və işçi qrupunun 2019-cu il üzrə iş planı təsdiq edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 819 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019–2023-cü illər üçün Dövlət Proqramı"nın Tədbirlər Planında Ədliyyə Nazirliyi qarşısında yerli özünüidarəetmə orqanlarının kadr potensialının gücləndirilməsi, yerli özünüidarəetmə orqanlarının aparatlarında çalışan işçilərin Ədliyyə Akade-

miyasında kurslara, treninqlərə və təlimlərə cəlb edilməsi, xarici ölkələrin yerli özünüidarəetmə orqanları ilə beynəlxalq təcrübə mübadiləsinin təşkil edilməsi ilə bağlı vəzifələr müəyyən edilmişdir.

Yerli özünüidarəetmənin təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər bələdiyyələrin imkanlarını genişləndirmiş, onların inkişafı üçün daha əlverişli şərait yaratmışdır. Bələdiyyələrin çoxu yerli əhalinin maraqlarını təmin etmək üçün sosial-iqtisadi problemlərin həllində fəal iştirak etmiş, təmir, abadlıq işləri görmüş, qanunla onlara verilən maliyyə potensialını artırmağa çalışmışlar. Yerli özünüidarəetmə orqanlarının qəbul etdikləri aktların Azərbaycan Respublikasının normativ hüquqi aktlara uyğunluğunun və bütövlükdə bələdiyyələrin işində qanunçuluğun təmin edilməsi ilə bağlı zəruri tədbirlər görülmüşdür. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin yaxşılaşdırılması məqsədi ilə bu sahədə görülən işlər təhlil olunaraq Ədliyyə Nazirliyinin kollegiyasında müzakirə edilmiş, mövcud çatışmazlıqların aradan qaldırılması, qarşıya çıxan problemlərin həll edilməsi üçün tapşırıqlar verilmiş və onların icrası təmin olunmuşdur. Hesabat dövründə inzibati nəzarət qaydasında baxılması üçün Ədliyyə Nazirliyinə 72 min 535 bələdiyyə aktı, o cümlədən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə 2077 akt daxil olmuşdur. Bu, ötən il ilə müqayisədə 12 faiz çox olmuşdur. Aparılan hüquqi ekspertizanın nəticəsi olaraq 69 min 775 akt qanunvericiliyə uyğun hesab edilmiş, normativ hüquqi aktlara uyğun olmayan 2403 aktın dəyişdirilməsi və ya ləğv edilməsi ilə bağlı aidiyyəti bələdiyyələrə təkliflər verilmişdir. Bu da ötən il ilə müqayisədə 21,5 faiz çox olmuşdur. Bu təkliflər əsasında bələdiyyələr tərəfindən 979 akt ləğv edilmiş, 1031 akt

dəyişdirilmişdir. Bələdiyyələr tərəfindən təmin olunmayan təkliflər üzrə aktların dəyişdirilməsi və ya ləğv edilməsi ilə bağlı məhkəmələrdə 9 iddia qaldırılmışdır. Onlardan dördü məhkəmə tərəfindən təmin edilərək bələdiyyə aktları ləğv edilmiş, beşi isə baxılmaqdadır. İl ərzində 5921 hektar torpaq sahəsinin qanunsuz verilməsinin qarşısı alınmışdır ki, bu da ötən il ilə müqayisədə 2,2 dəfə çox olmuşdur.

"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununun 6-cı maddəsində nəzərdə tutulmuş bələdiyyə aktlarının vaxtında təqdim edilməməsinə görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 549.2-ci maddəsinə əsasən bələdiyyələrin 143 vəzifəli şəxsi barəsində inzibati xəta haqqında protokol tərtib edilərək məhkəmələrə göndərilmişdir. 2018-ci ildə Ədliyyə Nazirliyinə bələdiyyələrin fəaliyyəti ilə bağlı daxil olmuş 2247 müraciətdən 1988-nə qanunvericiliyin tələblərinə uyğun olaraq baxılmış, onlardan 82-si təmin edilmişdir.

Yerli özünüidarəetmə sahəsində əldə olunmuş tərəqqiyə baxmayaraq, bir sıra bələdiyyənin işində nöqsanlar və qanun pozuntularına yol verilmişdir. İnzibati nəzarət icrası qaydasında aparılmış 26 araşdırmada cinayət əməlinin əlamətləri aşkar edildiyindən toplanmış materiallara hüquqi qiymət verilməsi üçün prokurorluq orqanlarına göndərilmişdir. Həmin materiallardan 18-i üzrə cinayət işi başlanılmış, digərləri isə baxılmaqdadır. Onlardan Quba rayonu Quba bələdiyyəsinin, İmişli rayonu Yalavac, Biləsuvar rayonu Xırmandalı, Hacıqabul rayonu Hacıqabul, Bərdə rayonu Samuxlu, Ağcabədi rayonu Kürdlər, Qazax rayonu Qazax, Balakən rayonu Balakən, Qabaqçöl, Xızı rayonu Xızı, Bakı şəhəri Sabunçu rayonunun Bilgəh

qəsəbəsi və Kürdəmir rayonu Sığırlı bələdiyyələrinin vəzifəli şəxsləri barəsində müvafiq maddələr üzrə cinayət işləri başlanmışdır. Bələdiyyələrin fəaliyyətində aşkar edilmiş hüquq pozuntularının təhlili göstərir ki, həyata keçirilən tədbirlərə baxmayaraq, bir sıra xarakterik nöqsanlar, o cümlədən torpaq və maliyyə qanunvericiliyinin pozulması, bələdiyyə iclasının səlahiyyətlərinə aid məsələlər üzrə təkbaşına qərarlar qəbul edilməsi hallarına hələ də yol verilir. Törədilmiş cinayət əməlləri daha çox belə pozuntularla bağlı olmuşdur.

Yerli vergi ödənişlərinin uçotu və yığımı yaxşılaşsa da, bu sahədə problemlər qalmaqdadır. Mədən vergisi ödəyicilərinin, mehmanxana, sanatoriya, kurort və turizm xidmətləri göstərən şəxslərin uçotdan yayınmasına yol verilir. Ölkə bələdiyyələrinin çoxu yerli sosial-iqtisadi problemlərin həllində fəal iştirak etsələr də, onların gördüyü işlər barədə ictimaiyyətə geniş məlumat verilmir, bələdiyyələrin daha aktiv fəaliyyət göstərməsi üçün yaxşı iş təcrübəsinin mətbuatda işıqlandırılması və yayılması önəmli olduğundan bələdiyyələrin milli assosiasiyalarına bu sahədə diqqət artırmaları barədə müraciət olunmuşdur.

Bələdiyyələrin sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin dövlət siyasəti ilə təşviq olunmasına, normativ hüquqi bazanın formalaşmasına baxmayaraq, bu sahədə təşəbbüskarlıq yetərli deyil. Təəssüf doğurucu haldır ki, bələdiyyələrin təsis etdikləri kommersiya hüquqi şəxslərinin böyük bir qismi fəaliyyət göstərmir. İşləyənlərin bəziləri isə bələdiyyə büdcəsinə mənfəət vergisi ödəmirlər. Belə halların qarşısının alınması üçün tədbirlər görülür.

Bələdiyyələrin fəaliyyətinə metodik kömək göstərilməsi məqsədi ilə maarifçilik tədbirləri davam etdirilmişdir. Hesabat dövründə Ədliyyə Akademiyasında 20 tədris

kursu keçirilmiş, burada 695 dinləyici iştirak etmişdir. O cümlədən Dövlət İdarəçilik Akademiyasında bir kursda 25 dinləyici iştirak etmişdir. Göstərilənlərlə yanaşı, Ədliyyə Nazirliyi tərəfindən 210 seminar və təlim keçirilmiş, bu tədbirlərdə 8133 bələdiyyə üzvü və qulluqçusu iştirak etmişlər. Maarifçilik tədbirləri, əsasən, aşağıdakı mövzular üzrə həyata keçirilmişdir:

bələdiyyə aktlarının qəbulu və icrası, bələdiyyə torpaqlarının idarə olunmasında qanunçuluğun təmin edilməsi, bələdiyyələrdə vergi işinin səmərəliliyinin artırılması, strateji yol xəritəsinin icrasında bələdiyyələrin iştirakı, bələdiyyələrdə və bələdiyyə müəssisələrində arxiv işinin təşkili, bələdiyyə qulluğuna qəbul prosesində şəffaflığın təmin edilməsi və sair.

Maarifçilik tədbirlərinin keçirilməsində dövlət orqanları ilə yanaşı, beynəlxalq qurumlarla da əməkdaşlıq edilmişdir. Belə ki, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti ilə əməkdaşlıq çərçivəsində bələdiyyə üzvləri və qulluqçuları üçün nazirliyin regional ədliyyə idarələri ilə birgə "Bələdiyyə büdcəsinin tətbiqində iqtisadi kodların tətbiqi" mövzusunda 10 regional təlim keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən muxtar respublika bələdiyyələrinin maarifləndirilməsi üçün keçirilmiş 14 seminarda 945 bələdiyyə üzvü və qulluqçusu iştirak etmişdir. Bundan başqa, Azərbaycan bələdiyyələrinin milli assosiasiyalarının təşkilatçılığı ilə 27 bələdiyyə sədri ayrı-ayrılıqda Türkiyədə, Latviyada, Litvada, Bosniya və Herseqovinada yerli özünüidarə orqanlarının təcrübəsi ilə yaxından tanış olmuşlar. Ümumilikdə, il ərzində 249 maarifçilik tədbiri keçirilmiş və bu tədbirlərdə 9825 bələdiyyə üzvü və qulluqçusu iştirak etmişdir. İl ərzində 15 metodik vəsait və

tövsiyələr hazırlanaraq istifadə üçün bələdiyyələrə göndərilmişdir. Onlardan bəzilərini – "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulan aidiyyəti tədbirlərin icrasını, torpaqların münbitliyinin və əkin yerlərinin mühafizəsini, yerli özünüidarə sahəsində yeni normativ hüquqi aktları, bələdiyyələrin normativ xarakterli aktlarının hazırlanmasına dair metodik göstərişləri, yerli büdcənin tərtibini, fərdi yaşayış evlərinin tikintisi üçün ayrılmış torpaq sahələrinin təyinatının pozulması hallarının qarşısının alınmasını, qəbiristanlıqların salınmasını, idarə olunması qaydalarını və digərlərini qeyd etmək olar. Habelə yerli özünüidarə orqanlarının normativ aktlarının bülleteninin 4 nömrəsi nəşr edilmişdir. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin Tədbirlər Planından irəli gələrək Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti ilə birgə hazırlanmış, "Yerli turizmin inkişafında bələdiyyələrin iştirakı" kitabı bələdiyyələrə təqdim olunmuş, Ədliyyə Nazirliyi kollegiyasının qərarına uyğun olaraq hazırlanmış, sahibkarlığın inkişafında bələdiyyələrin iştirakı ilə bağlı qanunvericiliyə dair sənədlər toplusu çap edilərək təqdimatı keçirilmişdir.

Ötən il bələdiyyələrin milli assosiasiyalarında fəaliyyəti səmərəli olmuşdur. Assosiasiyaların bələdiyyələrin fəaliyyəti ilə bağlı məlumatların toplanması və sistemləşdirilməsi sahəsində gördüyü işlər diqqətə layiqdir. Assosiasiyaların nümayəndələri Milli Məclisin sessiyalarında və komitələrinin iclaslarında yerli özünüidarə məsələləri üzrə qanun layihələrinin müzakirələrində iştirak etmiş, öz təklif və mülahizələrini bildirmişlər. Azərbaycan Respublikası Milli Məclisinin Regional məsələlər komitəsinin və Azər-

baycan Şəhər, Qəsəbə və Kənd bələdiyyələri milli assosiasiyalarının təşkilatçılığı ilə  2018-ci il oktyabrın 11-də Sumqayıt şəhərində "Yerli demokratiyanın inkişafı naminə vətəndaşların inkişafı, maarifləndirilməsi və öhdəlikləri" mövzusunda keçirilən konfransda Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin tövsiyəsinə əsasən hər il keçirilən yerli demokratiya həftəsi ilə bağlı əvvəlki illərdə qazanılmış təcrübə, uğurlar geniş müzakirə edilərək bələdiyyə idarəçiliyində yerli demokratiya həftəsinin önəmi vurğulanmışdır. Müzakirələrin nəticəsi olaraq milli assosiasiyaların təşəbbüsü ilə oktyabrın 16-dan 21-dək Azərbaycanda yerli demokratiya həftəsi təşkil edilmişdir.

Yerli özünüidarə sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsinə xüsusi önəm verilərək 2018-ci ildə də Avropa Şurasının, Avropa İttifaqının aidiyyəti qurumları ilə, Dünya Bankının Avropa və Mərkəzi Asiya Regional İdarəsi və başqa beynəlxalq təşkilatlarla əməkdaşlıq davam etdirilmişdir. Belə ki, Dünya Bankının Üçüncü Kənd İnvestisiyaları Layihəsi çərçivəsində strateji yol xəritəsində nəzərdə tutulan tapşırıqla bağlı yaradılan pilot bələdiyyələrlə əməkdaşlıq məsələləri müzakirə edilmişdir. Yerli özünüidarəetmə fəaliyyəti və bu sahədə qadınların iştirakına dair Azərbaycan təcrübəsi ilə tanış olmaq məqsədi ilə ölkəmizdə səfərdə olan Fələstin Dövlətinin Yerli Hökumət Nazirliyinin nümayəndə heyəti ilə görüş keçirilmişdir. Avropa İttifaqının İqtisadi İnkişaf Naminə Merlər Layihəsinin nümayəndə heyəti ilə əməkdaşlığın perspektivləri və digər məsələlər müzakirə edilmişdir.

Hörmətli deputatlar, ötən il Milli Məclisin plenar iclasında, Regional məsələlər komitəsinin ötən il və bu il yanvarın 25-də keçirilmiş iclaslarında illik məruzənin

geniş müzakirəsi keçirilmiş, deputatlar tərəfindən bir sıra məsələlər qaldırılmış, təkliflər irəli sürülmüşdür. Qeyd etmək istəyirəm ki, qaldırılan hər bir məsələ diqqətlə öyrənilir, təhlil olunur, nəzərə alınır və gələcək fəaliyyətdə də nəzərə alınacaqdır. Yerli özünüidarəetmə orqanlarının işinin təkmilləşdirilməsi, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi, bələdiyyə üzvləri və qulluqçularının maarifləndirilməsi üzrə işlər davam etdirilir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Vilayət müəllim. İndi Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadəyə sözü verək. Ancaq hörmətli millət vəkilləri, etiraz yoxdursa, müzakirələrə başlayanda 5 dəqiqəyə keçək, çünki 32 məsələmiz var. Arif müəllim, buyurun.

**A.Rəhimzadə,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Cənab Sədr, hörmətli həmkarlar və iclas iştirakçıları! Müzakirədə təqdim olunmuş məruzədən və hörmətli Vilayət müəllimin çıxışından göründüyü kimi, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən Ədliyyə Nazirliyi tərəfindən 2018-ci ildə xeyli iş görülmüşdür. Birbaşa nəzarətlə bərabər, bələdiyyə üzvlərinin və qulluqçularının bilik səviyyəsinin artırılmasında, qabaqcıl təcrübənin öyrənilməsində və yayılmasında, beynəlxalq əlaqələrin genişləndirilməsində və sair məsələlərdə səmərəli fəaliyyət göstərilmişdir.

İllik məruzə Regional məsələlər komitəsində müzakirə edilmiş və Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olunmuşdur. Komitənin iradı indiyə qədər ondan ibarət idi ki, Bələdiyyələrlə İş Mərkəzinin fəaliyyətinə inzibati nəzarətə daha geniş aspektdə yanaşılmalıdır və bələdiyyələrin mövqeyi, maraqları, qanuni tələbləri müda-

fiə edilməlidir. Belə yanaşma üçün hüquqi əsas da mövcuddur. Cənab Prezident tərəfindən təsdiq edilmiş Ədliyyə Nazirliyinin Əsasnaməsinin 9.30-cu maddəsində bələdiyyələrin fəaliyyətinin təşkil edilməsinə kömək və onlara metodoloji yardım göstərilməsi üzrə müvafiq tədbirlər görmək tapşırılır.

Hörmətli həmkarlar, məmnunluq hissi ilə deməliyəm, nəhayət, belə qənaət əldə olundu ki, Ədliyyə Nazirliyi özünün yüksək nüfuzundan istifadə edərək, dövlət büdcəsinin hazırlanmasında və müzakirəsində, qanunla nəzərdə tutulmuş yerli vergi ödənişlərinin toplanmasında və qanunun digər tələblərinin həllində bələdiyyələrin maraqlarını müdafiə edəcək, bələdiyyələrə köməklik edəcəkdir. Diqqətinizə görə sağ olun.

## *Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini **Ziyafət Əsgərov** sədrlik edir*

**Sədrlik edən.** Arif müəllim, davam etmək istəyirdiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Əli Məsimli, buyurun.

**Ə.Məsimli.** Çox sağ olun, Ziyafət müəllim. Mən çıxış edəndə Vahid müəllim siyahıdan çıxacaq və bununla da biz vaxta qənaət edəcəyik. Çıxışımın ikimizin – Vahid müəllim və mənim adımdan qəbul edilməsini xahiş edirəm.

Vilayət müəllim bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzəni həmişəki kimi yenə də çox yüksək səviyyədə təqdim etdi. Bugünkü fərq ondan ibarətdir ki, strateji yol xəritəsində nəzərdə tutulan məqamları da əlavə etməklə öz məruzəsini xeyli dərəcədə zənginləşdirdi. Ona görə təşəkkür edirik. Amma nəzərə alaq ki, bu il bələdiyyələrin 20-ci ili tamam

olur və bələdiyyələr 20 il ərzində fəaliyyət göstərib. Bu o qədər də kiçik bir dövr deyil. Ona görə də bizim çıxışımız bir qədər fərqli olacaq.

Əgər biz bələdiyyələrin 20 illik fəaliyyətini təhlil etsək, ilk növbədə baxıb görəcəyik ki, yerli özünüidarə orqanı kimi yaradılan bələdiyyələr xeyli dərəcədə heç özlərini belə idarə edə bilmirlər. Bu, ittiham deyil, reallıqdır. Əgər bələdiyyələr yaranıbsa, onlar yerli problemlərin həllində fəal iştirak etməlidirlər. Fəal iştirak etməmələrinin səbəblərindən birini 2015-ci ildə Azərbaycan Prezidenti bələdiyyələrə münasibətdə göstərib ki, bələdiyyələr xeyli dərəcədə özlərini yerli icra orqanlarının filialları kimi göstərirlər. Əgər yerli icra orqanlarının filialları kimi göstərirlərsə, deməli, tabelik münasibətində olan bələdiyyələr yerli problemlərin həllində vətəndaşların istədikləri, gözlədikləri səviyyədə iştirak edə bilməzlər. Ona görə də bu il bələdiyyə seçkiləridir, dekabrda keçirilən bələdiyyə seçkilərində, mən hesab edirəm ki, yerli kadrların, yəni yerli problemləri həll etməyə qadir insanların xeyli hissəsini bələdiyyələrə cəlb etmək lazımdır. Əgər bu insanlar bələdiyyələrdə olsa, onlar bələdiyyələrin fəaliyyətini Konstitusiya ilə, Azərbaycan qanunları ilə müəyyən olunmuş dərəcədə canlandıracaq, yerli problemlərin həllində, bələdiyyələrin rolunun artırılmasında, hesab edirəm ki, ciddi rol oynayacaqlar. Əgər doğrudan da, bu cür kadrlar seçkilərdə öz yerlərini tutsalar, onda paralelçiliyin aradan qaldırılması üçün ilk addım kimi, necə ki, bu məruzədə göstərilib, Ziyafət müəllim, 7 kənddə pilot layihə yerinə yetiriləcək. Bu, yaxşıdır, amma yarımçıq qalıb. Bələdiyyələr təkcə kənddən ibarət deyil. Ona görə də biz təklif edirik ki, pilot layihələrin 7 kənd üstəgəl 1 şəhər, üstəgəl 2 rayon mərkəzində də keçirilməsi çox

vacibdir. Bax, belə bir pilot layihələr keçiriləndən sonra artıq yerli problemlərin həllində bələdiyyələrin rolunun artırılması ilə bağlı addım atmaq olar.

Bir neçə il bundan qabaq qanunvericilikdə də dəyişiklik oldu. Burada bizə kontr qoyulan bir məsələ var ki, bələdiyyələr yerli problemlərin həllinə hələ hazır deyil. Onda həmin o kontra bir cavab verilə bilər ki, nə vaxt bələdiyyələrə imkan verdiniz, onlar qanunla müəyyən olunmuş problemlərin həllində özlərini sınasınlar. Belə bir şey olmayıb ki?! Deməli, həmin pilot layihələrdə məhz bələdiyyələrə imkan vermək lazımdır ki, onlar torpaq məsələsi ətrafında həmlə edən orqandan yerli problemlərin həllində fəal iştirak edən orqana çevrilsinlər. Bunun üçün ilk növbədə qeyd etmək istəyirəm ki, bələdiyyələrin sayı haradasa 2700 idi, 1771-ə enib. Azərbaycan kimi bir ölkə üçün 1700-dən artıq bələdiyyə çoxdur. Bələdiyyələrin sayını yenə də azaltmaq lazımdır.

İkinci vacib məsələ – bələdiyyə mülkiyyətindən istifadənin səmərəliliyini artırmaq üçün xüsusi bir proqram, sənəd hazırlayıb həyata keçirmək lazımdır. Bələdiyyələrə hər il 2-3 milyon manat pul ayrılırdı. Son vaxtlar bu, 5,2 milyon manata çatdırılıb. 2019-cu ilin büdcəsində buradan yarım milyon götürülüb, əvəzinə 1 milyon manat subvensiya verilib. Amma nəzərə alsaq ki, 1700-dən artıq bələdiyyə var, 1 milyon manatlıq subvensiya kimə çata bilər? Ona görə də hesab edirəm ki, əgər subvensiya bu ildən tətbiq olunmağa başlayıbsa, bunu alqışlayırıq. Amma subvensiyaları 1 milyon ətrafında məhdudlaşdırmağı düzgün hesab etmirik. Həmin vəsaitin artırılması istiqamətində ciddi addımlar atılmalıdır.

Eyni zamanda, əgər bayaq dediyimiz kadrları işə dəvət etmək mümkün olsa, onları hər kəndin, Azərbaycandan

kənarda, Rusiyada, Türkiyədə, başqa yerlərdə yaşayan insanların da kənd problemlərinin həllinə cəlb eləmək olar. Beləliklə, hesab edirəm ki, bələdiyyələrin fəaliyyətində ciddi bir dönüşə nail olmaq olar. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli Ziyafət müəllim. Vilayət müəllim hər il olduğu kimi, bu il də bələdiyyələrin fəaliyyəti ilə bağlı ətraflı şəkildə, geniş məruzə etdi. Mən hesab edirəm ki, təqdirəlayiq bir məruzədir. Bu sahədə kifayət qədər işlər görülür, nəzarət olunur, müəyyən qanunları pozan və qanundan kənara çıxan bələdiyyələrlə bağlı lazımi ölçülər götürülür. Burada statistik rəqəmlər də qeyd olundu. Hesab edirəm ki, bu proses ilbəil daha da təkmilləşir, daha da təqdirəlayiq olur. Ona görə də deputat həmkarlarımdan səs verib bunu qəbul etmələrini xahiş edirəm ki, bələdiyyələrin hesabatını nəzərə alaq.

Mən də bir neçə kəlmə demək istəyirəm. Bələdiyyələrin yeni struktur olması, bələdiyyələrin fəaliyyəti, onlara nəzarət, iş mexanizmi, onlara dövlət tərəfindən yardımların verilməsi burada tez-tez hallanır. Biz səhv etmirəmsə, artıq 4-cü bələdiyyə seçkilərinə gedirik. Azərbaycanda bələdiyyələr 15 ildən artıqdır ki, fəaliyyət göstərirlər. Bu fəaliyyət müddətində də kifayət qədər təcrübə toplayıblar. Mən hesab edirəm ki, bələdiyyələrin özündə bələdiyyənin idarə olunmasına və bələdiyyə fəaliyyətinə baxış dəyişməlidir. Yeni bir baxış sistemi formalaşmalıdır. Bəziləri həddindən artıq çox səlahiyyət istəyir, bəziləri isə verilən səlahiyyəti tam yerinə yetirmir, tamamilə başqa məqsədlər uğrunda iş aparırlar. Mən hesab edirəm ki, bələdiyyələr artıq kifayət qədər təkmilləşmiş bir strukturdur və özləri öz təminatı ilə

bağlı lazımi addımlar atmalıdırlar. Bələdiyyə deyən kimi, birinci düşüncə o gəlir ki, torpağı necə həll etsin, kimə versin, nəyi hansı formada həyata keçirsin.

Bu gün bələdiyyələrdə bələdiyyə məktəbləri, bələdiyyə bağçaları, bələdiyyə iaşə obyektləri, bələdiyyə kitabxanaları, bələdiyyə klubları, kinoteatrları – hansından bir nümunə göstərmək olar? Yoxdur. Elə bələdiyyələr var ki, onlara dövlət tərəfindən milyondan artıq subsidiyalar verilibdir ki, bir sistem, elektron kitabxana yaradılsın. Günün birinci hissəsində bu məsələlər – kitabxanaların tikilməsi və sair müzakirə olundu. Elektron kitabxana tikilə bilərdi, bir kompüter mərkəzi açıla bilərdi ki, oradan xırda-xırda gəlir gəlsin, amma daim gəlsin. Elə gələn dərhal deyir ki, mən filan məsələləri həll edim, bəlkə növbəti dəfə seçilmədim, növbətiyə bir şey qalmasın. Bu baxımdan bələdiyyə meşələrinin, bağlarının salınması lazımdır, bələdiyyələrin torpaqları var, örüşləri var ki, bunları icarəyə verib buradan gələn gəlirlərdən istifadə edirlər. Yenə də deyirəm ki, biz qanunverici orqan kimi, bələdiyyələrə kifayət qədər səlahiyyət vermişik. Bələdiyyələrlə bağlı 20-dən artıq qanun var, bələdiyyə statusu ilə bağlı qanun var. Təbii ki, mən başa düşürəm, müəyyən strukturlar da bunlara mane olurlar. Amma yaxşı işləyəndən sonra, iş qurulandan sonra onlar da maneçilik törətməyəcəklər. Əksinə, hər hansı bir rayonun, qəsəbənin, kəndin işinin irəli getməsi üçün dəstək olacaqlar.

İndi qəbiristanlıqlar bələdiyyələrə verilib. Orada elə bir şərait yaratmaq olar ki, insanlar bütün prosedurları xoşluqla bələdiyyələrə həvalə eləsinlər. Amma biz bu şəraitin hər hansı yolla təşkil olunmasını, hazırlıqların həyata keçirilməsini görmürük. O baxımdan da mən hesab edirəm ki, səs verək, qəbul edək.

Biz növbəti bələdiyyə seçkilərinə qədər bir neçə məsələni həll etməliyik: birinci, onların sayının azaldılması, ikinci, bələdiyyə sədrlərinin seçkili olması, üçüncü isə bələdiyyələrin tam işləyib gəlir gətirmə mexanizminin hazırlanması. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, Ziyafət müəllim. Hörmətli həmkarlar, media nümayəndələri! Ölkədə Prezident tərəfindən həyata keçirilən sosial-iqtisadi islahatlar əhali tərəfindən rəğbətlə qarşılanır və mən hesab edirəm ki, bu islahatlar bələdiyyələri də əhatə etməlidir. Bir az bundan öncə Siyavuş Novruzov çıxışında qeyd etdi ki, radikal, yaxud "xaos müxalifəti" adlandırılan qüvvələr aparılan bəzi islahatları öz adlarına çıxarmaq istəyirlər ki, guya bu islahatlar bunların təzyiqi ilə həyata keçirilir. Əslində demokratik qüvvələr bundan pərişan olmamalıdır. Onların fikri, həqiqətən, eşidilibsə, buna sevinməlidirlər. Bunlar, əslində, şantaj yolu ilə bu islahatların dayandırılmasını istəyirlər. Amma hesab edirəm ki, islahatlar dərinləşməlidir. Xalqın istəyi də bundan ibarətdir.

Mən hətta bir epizodla tanış oldum. Doğrudan da, fikirləşdim ki, Prezidenti tənqid etmək olar. Ona görə ki, niyə bu ölkədə bu tipli müxalifət öz mövcudluğunu qoruyub saxlaya bilir? Məsələn, bir şəkil veriblər: Prezident açılışa gedib, onların qabağında çıxış edir, yəni 3-4 metr məsafədən danışır, çıxış edir. Başqa bir şəkildə isə göstərirlər ki, Prezident ağbirçək bir nənənin əlindən öpmək istəyir. Əslində, bu epizod əhalini xeyli duyğulandırdı. Çünki həmin ağbirçək nənə Prezidentin əlini çəkib öpmək istəyirdi, Prezident bunu qarşıladı, onun əlindən öpdü. İnsanlar da bunu çox böyük rəğbətlə qarşıladılar. Amma bilirsiniz, bu nəyə oxşayır? Elə bil, bu insanlar toy yerinə

gedənlə yas yerinə gedəni fərqləndirə bilmirlər. Açılışa getmək toydur, amma faciə baş veribsə, insanların damı başına uçubsa, əlbəttə, Prezident o insanların yanında olmalıdır, onları qucaqlamalıdır da, öpməlidir də, onlara təsəlli də verməlidir. Yəni bunun fərqində olmayan insanlara, hesab edirəm ki, çox da baş qoşmağa dəyməz.

Sonda bu hesabatla bağlı bəzi fikirlərimi söyləmək istəyirəm. Burada, doğrudan da, qeyd olunur ki, yerli özünüidarəetmə sahəsində əldə olunmuş tərəqqiyə baxmayaraq, bələdiyyələrin işində nöqsanlar da var. Tərəqqi o deməkdir ki, hansısa böyük uğurlara, əhəmiyyətli irəliləyişlərə imza atılıb. Lakin bu sözü bələdiyyələrlə bağlı işlətmək, hesab edirəm, doğru deyil. Bizə, sadəcə olaraq, məlumat verin ki, bələdiyyələr nə qədər vergi toplayırlar, onların nə qədər hissəsi bələdiyyələrin icra orqanlarının saxlanmasına xərclənir, nə qədər hissəsi isə bu və ya digər sosial-iqtisadi problemlərin həllinə sərf olunur. Burada isə qeyd olunur ki, bələdiyyələr tərəfindən 50-ə yaxın kommersiya qurumu yaradılıb və onların da 50 faizindən çoxu, yəni böyük bir qismi fəaliyyət göstərmir.

Doğrudan da, mən hesab edirəm ki, bələdiyyələrlə iş yenidən qurulmalıdır, yeni yanaşma olmalıdır. Məsələn, mən digər hissədə oxuyuram ki, Ədliyyə Nazirliyinin Akademiyasında 20 tədris kursu, 21 seminar, 10 regional təlim keçirilib, xarici ölkələrə təcrübə mübadiləsi ilə bağlı səfərlər olub. Bunların hamısı pul deməkdir, Ziyafət müəllim. Bu qədər vəsait xərclənib və bu təlimlərdə 8133 bələdiyyə üzvü iştirak edib. O zaman bu təlimlərin nəticəsi harada qaldı? 50 kommersiya təşkilatı yaradılıb, onların da böyük əksəriyyəti fəaliyyət göstərmir. Bu da hesabatda öz əksini tapıb. Təlimlərdə həmin o bələdiyyə üzvlərinə nə öyrədirlər?

Hesab edirəm ki, bələdiyyələrin maliyyəsi artırılmalıdır. Bələdiyyələr təkcə bu iqtisadi problemlərin, yerli əhəmiyyətli məsələlərin həlli ilə məşğul olmamalıdırlar. Biz bilirik ki, son vaxtlar ölkədə radikal, yaxud dediyim həmin xaos müxalifəti tərəfindən siyasi islamın legitimləşdirilməsi istiqamətində ardıcıl və sistemli iş aparılır. "Müsəlman birliyi" adlanan həmin qrupun tərəfdarları və pulu uğrunda həmin düşərgə daxilində amansız mübarizə gedir. Bələdiyyə üzvləri, bələdiyyələr isə insanlara ən yaxın, onların seçdiyi şəxslərdir. Bu istiqamətdə bələdiyyələrin fəaliyyəti olmalıdır. Ona görə ki, bələdiyyələr sosial-iqtisadi proqramlar da həyata keçirməlidirlər. Bu, eyni zamanda, sosial bir məsələdir. Dövlətə ən böyük xəyanət İslamın siyasiləşdirilməsinin legitimləşdirilməsidir ki, Azərbaycanda bu istiqamətdə iş gedir. Həmin qüvvələr hesab edirlər ki, guya İslam siyasiləşərsə, gələcəkdə bu siyasiləşmiş radikal islamçılardan polisə qarşı, dövlət orqanlarına qarşı istifadə edilə bilər. Amma unudurlar ki, həmin o islamçılar hakimiyyətə gəlsələr, birinci onların – Şərqlə Qərb arasındakı müəyyən xarici dairələr arasında bu quyruq bulayanların başını kəsəcəklər.

**Sədrlik edən.** Sağ olun. Kamran Bayramov.

**K.Bayramov.** Çox sağ olun, Ziyafət müəllim. Dəyərli həmkarlar, mən də bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsini dəstəkləyirəm. Məruzədə Bələdiyyələrlə İş Mərkəzi tərəfindən ötən il ərzində görülmüş işlərin, o cümlədən bələdiyyələr tərəfindən qəbul olunmuş aktların araşdırılması statistikası, bələdiyyələrin işində aşkar olunmuş nöqsan və pozuntular bələdiyyə üzvlərinin və qulluqçularının tədrisi, xarici dövlətlərin bələdiyyə orqanlarının beynəlxalq iqtisadlaşdırılmış qurumlar ilə əməkdaşlığı barədə geniş məlumat veril-

di. Lakin zənnimcə, məruzədə əsas diqqət çəkən, müsbət məqamlardan biri odur ki, bu dəfə sənəddə bələdiyyələrin üzləşdiyi problemlər, məsələn, yerli vergi uçotundan yayınma, bələdiyyə fəaliyyətinin kifayət qədər işıqlandırılmaması, bələdiyyə müəssisələrinin fəaliyyətsizliyi kimi məsələlər qaldırılır və onların həlli yolları da göstərilib. Düşünürəm ki, qaldırılmış məsələlər Ədliyyə Nazirliyi və bələdiyyələrin milli assosiasiyaları, habelə digər aidiyyəti qurumların dəstək və köməyi ilə öz həllini tapacaqdır.

Bildiyiniz kimi, 2019-cu il bələdiyyələr üçün rəmzi ildir. Bir tərəfdən bələdiyyələrin 20 ili tamam olur, digər tərəfdən də bələdiyyə seçkiləri keçiriləcəkdir. Azərbaycanda aparılan köklü islahatlar, yaşanan dinamik tərəqqi dövründə bələdiyyələr də özünün inkişaf dövrünü yaşayır, vətəndaşların maraq və mənafeləri naminə yerli əhəmiyyətli məsələləri həll edir, cəmiyyətdə vətəndaşların etibarını, inamını qazanmağa çalışır və qanunvericiliklə nəzərdə tutulmuş səlahiyyətlər çərçivəsində konkret işlər görürlər. Təbii ki, onların bu fəaliyyəti dövlətin dəstəyi olmadan çətin uğurlu olsun. Elə son illər ərzində cənab Prezidentin təşəbbüsü ilə bələdiyyə qanunvericiliyi xeyli təkmilləşdirilmişdir. Eyni zamanda, maliyyə imkanlarının və iqtisadi potensialının gücləndirilməsi ilə bağlı bir çox təsirli addımlar atılmışdır. Burada da qeyd olundu ki, bələdiyyə tarixində ilk dəfə olaraq dövlət büdcəsində bələdiyyələr üçün subvensiyalar, yəni məqsədli təyinat üçün ayrılan vəsait nəzərdə tutulmuşdur. Mən düşünürəm ki, bu baxımdan bələdiyyə institutunun Azərbaycanda böyük bir perspektivi var, inkişafı olacaqdır və qarşıdan gələn seçkilər də bunu sübut edəcəkdir. Mən sizə bir neçə rəqəm demək istəyirəm. Ölkəmizdə, cəmiyyətimizdə bələdiyyə institutuna maraq artmaqdadır. Bir rəqəm gətirim:

2014-cü ildə bələdiyyə seçkilərində seçici fəallığı 18–19 faiz təşkil etmişdir. Bu da ötən bələdiyyə seçkiləri ilə müqayisədə 7,1 faiz çox olmuşdur. Bu, təbii ki, insanların, vətəndaşların, seçki hüququna malik vətəndaşlarımızın bələdiyyə institutuna marağını bir daha göstərir. Eyni zamanda, keyfiyyət tərkibi baxımından da ötən bələdiyyə seçkiləri uğurlu olmuşdur. Müəyyən rəqəmləri də deyim. Məsələn, ali təhsillilərin sayı 25,8 faiz, qadınların sayı 8,9 faiz, gənclərin sayı 9,2 faiz artmışdır. Göstərilən rəqəmləri nəzərə alaraq belə bir qənaətə gəlmək olar ki, qarşıdan gələn 2019-cu il bələdiyyə seçkilərində seçici fəallığı və bələdiyyə üzvlərinin keyfiyyət tərkibi daha da yüksək olacaq və növbəti illərdə bələdiyyələrin fəaliyyəti daha səmərəli olacaq, vətəndaşlara daha çox sayda, çox çeşiddə xidmət göstərə biləcəklər.

Eyni zamanda, mən müəyyən təkliflərlə çıxış etmək istərdim. İlk növbədə bələdiyyə fəaliyyətini işıqlandırma məsələsi ilə bağlı deyim. Məsələn, bildiyiniz kimi, Azərbaycan televiziyasında və İctimai televiziyada aparılan son islahatlar və müsbət dəyişikliklər yayımlanır və mən belə düşünürəm ki, həm Ədliyyə Nazirliyi, həm də bələdiyyələrin milli assosiasiyaları bundan səmərəli istifadə etməlidirlər. Bələdiyyə fəaliyyətinə həsr olunmuş silsilə verilişlər təşkil etməlidirlər, onların hazırlanmasına təşəbbüs etməlidirlər. Bu baxımdan əhalinin bələdiyyələrin fəaliyyəti barədə maarifləndirilməsi daha asanlaşar, daha yaxşı olar, bununla da onların cəmiyyətdə rolu artar. Mən Ziyafət müəllimdən xahiş edərdim, mənə, zəhmət olmasa, əlavə bir dəqiqə də verərdi. Eyni zamanda, bələdiyyələrin fəaliyyəti genişləndikcə, qanunların tətbiqi zamanı müəyyən boşluqlar yarandıqca bələdiyyələrin fəaliyyətini tənzimləyən qanunlarda çoxsaylı əlavə və dəyişikliklər edilir.

**Sədrlik edən.** Mikrofon verin.

**K.Bayramov.** Mən sizə bir misal gətirim ki, ölkəmizdə yerli özünüidarəetmənin təşkili prinsiplərini və statusunu təsbit edən baza qanunu olan "Bələdiyyələrin statusu haqqında" Qanunda bu günə qədər 70-dək əlavə və dəyişikliklər edilmişdir və təbii ki, bu da qanunverici orqan üçün böyük yükdür. Bu, eyni zamanda, bələdiyyə qanunvericiliyində dəyişikliklərin uçotunun aparılmasında çətinliklər yaradır. Bu baxımdan, təbii, bütün bələdiyyə fəaliyyətinə aid olan qanunlar kodifikasiya edilməlidir, sistemləşdirilməlidir. Bununla da Bələdiyyə Məcəlləsi hazırlanıb qəbul edilməlidir. Məlumat üçün bildirim ki, bir çox Avropa dövlətlərində belə bir təcrübə var. Məsələn, Almaniyada, Fransada, Yunanıstanda belə sənədlər mövcuddur. Rusiyada Bələdiyyə Məcəlləsinin qəbulu ilə bağlı artıq müzakirələr gedir. Mən düşünürəm ki, Bələdiyyə Məcəlləsinin qəbulu bələdiyyələrin mövcud səlahiyyətlərinə yenidən baxılması, eyni zamanda, qanunvericiliyin sistemləşdirilməsi və kodifikasiya edilməsi baxımından faydalı olardı. Mən düşünürəm ki, Ədliyyə Nazirliyi də bu istiqamətdə öz sözünü deyə bilər və sözün düzü, onun da, nazirliyin də fikirlərini və rəyini bilmək bizim üçün faydalı olardı.

Ölkəmizdə gözəl bir təcrübə yaranıb. Bir çox əksər dövlət orqanlarının əməkdaşlarının peşə bayramı təsis olunub. Çox təəssüf, hələ ki, bələdiyyə üzvlərinin və qulluqçularının peşə bayramı təsis olunmayıb. Mən təklif edərdim ki, bu təşəbbüs bələdiyyə üzvlərinə və qulluqçularına da şamil edilsin, onların da peşə bayramı təsis edilsin. Xatırladım ki, ölkəmizdə 15 min bələdiyyə üzvü fəaliyyət göstərir. Minlərlə bələdiyyə qulluqçuları bələdiyyələrdə işləyir və mən düşünürəm ki, belə bir hədiyyənin

edilməsi onlarda ruh yüksəkliyinin və əzmkarlığın daha da artması ilə nəticələnə bilər, ümumiyyətlə, ölkəmizdə yerli özünüidarəetmə orqanlarının rolunun və əhəmiyyətinin artırılmasına xidmət edən bir addım kimi qiymətləndirilə bilər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Çingiz Qənizadə.

**Ç.Qənizadə.** Təşəkkür edirəm. Hörmətli həmkarlar, mən çıxışıma başlamadan öncə qısaca bir şeyi qeyd etmək istəyirəm ki, bu gün müzakirə etdiyimiz bu məruzə ilə bağlı bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən qurumun rəhbəri, gözəl insan, dəyərli, peşəkar hüquqşünas Zahir Əlizadə yanvar ayının 7-də dünyasını dəyişdi. Mən çox istərdim, hamılıqla ona Allahdan rəhmət diləyək və qeyd etmək istəyirəm ki, 2018-ci ilin fəaliyyətinin bilavasitə iştirakçısı, icraçısı mərhum Zahir Əlizadə olmuşdur. Təbii ki, Ədliyyə Nazirliyinin rəhbərliyinin müvafiq kuratorunun bilavasitə nəzarəti altında bu illik fəaliyyət məhz Zahir Əlizadənin dövrünə düşür. Allah rəhmət eləsin!

Bir şeyi qeyd etmək istəyirəm ki, onsuz da vəziyyəti o qədər ürəkaçan olmayan bələdiyyə orqanlarında son dövrlərdə aparılan islahatlarla və cənab Prezident tərəfindən verilmiş müəyyən fərman və sərəncamlarla bələdiyyələrin yükü bir az da artmışdır. Elə bizim qəbul etdiyimiz "Məşğulluq haqqında" Qanuna uyğun olaraq məşğulluğa kömək göstərilməsi məqsədi ilə bələdiyyələrin üzərinə müəyyən hüquq və vəzifələr qoyulmuşdur. Mən ümid edirəm ki. məhz yeni iş yerlərinin açılması, ailə kəndli təsərrüfatının uçota alınması, inkişaf etdirilməsi məqsədi ilə bələdiyyələr öz üzərinə düşən bu vəzifələri yerinə yetirməkdə fəal olacaqlar və ümumi işimizə fayda vermiş olacaqlar.

Son olaraq 2018-ci ilin dekabrında qəbiristanlıqların

salınması və idarə olunması qaydaları da təsdiq olundu və bu da bələdiyyələrə bir səlahiyyət verdi. Ümid edirəm ki, bələdiyyələr bundan da nəticə çıxararaq öz ərazilərində bu sahədə işin yaxşılaşdırılmasına xidmət göstərəcəklər. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi" ilə bağlı müəyyən öhdəliklər yenə bələdiyyələrin üzərinə düşür və 7 pilot layihənin seçilməsi bu məruzədə göstərilir. Belə hesab edirəm ki, Ədliyyə Nazirliyi bu pilot layihələrin üzərində ciddi nəzarəti həyata keçirməyə davam etməklə onlardan əldə olunan uğurlu nəticələrin gələcəkdə bələdiyyələrdə tətbiqinə rəvac verəcəkdir.

Mən bir hüquqşünas olaraq qeyd etmək istəyirəm ki, il ərzində daxil olan 72 min 535 bələdiyyə aktının bu orqanda araşdırılması burada iş yükünün nə qədər ağır olduğunu göstərir. Qeyd edim ki, 2403 aktın dəyişdirilməsi və ya ləğv edilməsi ilə bağlı qərarın qəbulu bu qurumun öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməsinin bir işarəsidir. Məruzədə haqlı olaraq bəzi bələdiyyələrin işi tənqid edilir, tənqidi faktlar göstərilir. Bu qurumda onlar barədə inzibati protokolların tətbiqi, cinayət məsuliyyəti yaranan hallarda onların istintaqa göndərilməsi göstərilərək, mən demək istəyirəm ki, faktlar, yəni mənfi faktlar ört-basdır edilməmiş, əslində, həqiqətin üzə çıxarılması və onlara hüquqi qiymət verilməsi üçün də lazımi tədbirlər görülmüşdür. Elə 103 bələdiyyə sədrinin inzibati məsuliyyətə cəlb edilməsi, hesab edirəm, böyük göstəricidir. Çünki eyni zamanda, 143 vəzifəli şəxslə bağlı inzibati xəta haqqında protokol tərtib edilib. Bu, göstərir ki, inzibati nəzarəti həyata keçirən qurum bələdiyyələrə qarşı münasibətdə olduqca obyektiv və eyni zamanda, barışmaz bir mövqedədir. Bu da bələdiyyələrin öz üzərinə düşən

məsuliyyəti dərk etməsinə, işinin yaxşılaşdırılmasına gətirib çıxaran məqamlardan biridir.

Burada haqlı olaraq qeyd olunur ki, bələdiyyələrin bu işi ilə bağlı, inzibati nəzarətin fəaliyyəti ilə bağlı Ədliyyə Nazirliyinin kollegiyasında dəfələrlə müzakirələr keçirilmişdir. Bir daha qeyd etmək istəyirəm ki, əgər Ədliyyə Nazirliyinin rəhbərliyi bu məsələləri kollegiyada müzakirə edirsə, deməli, bu işə ciddi nəzarət var. Ümid edirəm, növbəti illərdə də biz inzibati nəzarəti həyata keçirdən qurumun fəaliyyətində yeni uğurların şahidi olacağıq. Son olaraq qeyd etmək istəyirəm ki, bu qurum, eyni zamanda, Milli Məclisin müvafiq komitəsi ilə olduqca sıx əlaqədədir və onlar birlikdə tədbirlər keçirirlər. Bu da müsbət hallardan biridir.

**Sədrlik edən.** Buyurun, bir dəqiqə vaxt verin.

**Ç.Qənizadə.** Təşəkkür edirəm. Deməli, bu qurum vasitəsi ilə 15 metodik vəsaitin və tövsiyələrin hazırlanması, yerlərdə bununla bağlı tədbirlərin keçirilməsi, bu tədbirlərdə Milli Məclisin müvafiq komitəsinin deputatlarının da iştirakının təmin edilməsi, mən elə hesab edirəm, olduqca müsbət, yaxşı haldır və gələcəkdə də bunu davam etdirmək lazımdır.

Eyni zamanda, qarşıdan bələdiyyə seçkiləri gəlir. Mən ümid edirəm ki, növbəti seçkilərdə biz daha fəal işləmək həvəsi olan gənclərin bələdiyyələrə seçilmək üçün namizədliklərinin verilməsinin şahidi olacağıq. Mən elə buradan səslənirəm ki, bu gənclər dekabr ayında keçiriləcək seçkilərdə fəal olsunlar, öz namizədliklərini versinlər. Bələdiyyələrin işinə yeni nəfəs, yeni hərəkət gətirə bilən gənclərin bu namizədlər sırasına qatılmasını arzulayıram. Son olaraq mən məruzəyə, təbii ki, müsbət qiymət verirəm.

**Sədrlik edən.** Sağ olun. Qənirə Paşayeva.

**Q.Paşayeva.** Hörmətli Ziyafət müəllim, millət vəkilləri, həmkarlarım və media nümayəndələri! Mən də məruzəyə müsbət səs verəcəyəm. Mən bu məruzəni çox diqqət ilə oxudum. Hər zaman bələdiyyələrə istər maliyyə vəsaitinin ayrılmasını, istərsə də səlahiyyətlərinin genişləndirilməsini müdafiə edən bir insan olaraq bir neçə fikri söyləyəcəyəm. İllik məruzədə bu sahədəki problemlərimizin əsas qaynaqlarının, köklərinin harada olduğunu müəyyənləşdirərək nələri edə bilərik, bunları görmək mümkündür. Birincisi, burada bir vacib məqam qeyd olunur ki, bu, birbaşa Milli Məclislə bağlıdır. Mədən vergisi ödəyicilərinin, mehmanxana, sanatoriya, kurort və turizm xidmətləri göstərən şəxslərin uçotdan yayınmasına yol verilir. Vurğulanır ki, bu da bələdiyyələrin büdcəsinə təsir göstərən faktorlardan biridir. Eyni zamanda, məruzədə vurğulanır ki, yerli özünüidarə orqanlarının maliyyə vəziyyətinin yaxşılaşdırılmasına diqqət artırılmalıdır. Qanunla nəzarət mexanizminin yaradılması və bu ödənişin miqdarının müəyyən edilməsi, hesablanması qaydasının təkmilləşməsi məqsədəuyğundur. Mənə elə gəlir ki, yaxın zamanlarda müvafiq komitələr, Milli Məclisimiz mütləq bu məsələyə baxmalıdır və biz bu sahədə qayda-qanunların yaradılmasını, mexanizmlərin təkmilləşdirilməsini həyata keçirməliyik ki, bunlar bələdiyyələrin büdcə gəlirlərinə müsbət təsir göstərsinlər.

Hörmətli Vilayət müəllim də buradadır, mən bir sıra faktorları, məsələləri vurğulamaq istəyirəm. Görünür ki, bu, sadəcə, səlahiyyət və maliyyə məsələsi deyil. Bunu hər zaman xüsusi vurğulayırdıq. Amma bu məruzədə görünür ki, bələdiyyələrimizdə təşəbbüskarlıq və kadr problemi kimi ciddi məsələlər də var. Çünki bələdiyyələrə sahibkarlıq fəaliyyətini həyata keçirmələrinə icazə verildi və

bu, onların maliyyə imkanlarının yaxşılaşdırılması üçün çox önəmli bir addım idi. Amma məruzədə nə görürük? Ölkədə bu qədər bələdiyyə olmasına rəğmən, təəssüf ki, bələdiyyələr tərəfindən cəmi 50-ə yaxın kommersiya qurumu təsis edilib. Onların əksəriyyəti, demək olar ki, fəaliyyət göstərmir, çox azı fəaliyyət göstərir ki, onlar da bələdiyyə büdcəsinə, ümumiyyətlə, mənfəət vergisi ödəmirlər. Yəni bu adamlar – bələdiyyə sədrləri, idarəçiləri gələn qazanca sanki öz qazancları kimi baxırlar. Hər halda bunun mənası budur ki, bələdiyyə büdcəsinə yetərincə vergi maliyyə vəsaiti daxil olmur. Ona görə mən də həmkarlarımın fikirlərini dəstəkləyərək demək istəyirəm ki, əsasən, treninqlərdə, seminarlarda bu mövzu diqqətdə olmalıdır. Əgər dövlət bu cür imkanlar yaradırsa, bu səlahiyyətləri verirsə, bələdiyyələrimiz bundan geniş səviyyədə istifadə etməlidir.

Vurğulanır ki, bələdiyyələrin bir çoxu sosial-iqtisadi problemlərin həllində fəal iştirak edirlər, amma onların gördüyü işlər barədə ictimaiyyətə geniş məlumat verilmir. Biz bununla razıyıq. Bütün KİV-lərimizi, televiziyalarımızı bu məsələdə fəal olmağa çağırırıq ki, onlar “yaxşı” bələdiyyələrin təcrübəsini təbliğ eləsinlər, işini yarıtmayan bələdiyyələrin fəaliyyətini də işıqlandırsınlar. Amma burada bələdiyyələr özləri də fəal olmalıdırlar. Bələdiyyələrin öz saytları, milli assambleyası fəal olmalıdır ki, dövlət televiziyasında, ictimai televiziyada, büdcədən vəsait alan televiziyalarda verilişlərin ən azı həftədə bir dəfə təmin olunmasını həyata keçirmək, vətəndaşlara da geniş məlumatlar vermək mümkün olsun. Bu gün bütün insanlar, gənclərin çoxu sosial şəbəkələrdədir. Məsələn, qardaş Türkiyədə elə bir bələdiyyə yoxdur ki, sosial şəbəkələrdə – “Facebook”da, “Twitter”də hesabı olmasın. Elə bir

bələdiyyə, bələdiyyə sədri tapa bilməzsiniz. Bunlar pulsuz, heç bir maliyyə istəmədən məlumatların geniş yayılmasına imkan yaradan vasitələrdir. Bələdiyyələrimizin bundan da geniş istifadə etməsinə, hesab edirəm, çox böyük ehtiyac var.

Eyni zamanda, bir məsələni də xüsusi vurğulayacam ki, biz, doğrudur, 2017-ci ilin sonunda qanunda dəyişikliklərlə qəbiristanlıqların saxlanması, onlara nəzarət edilməsi və sair səlahiyyətləri bələdiyyələrə verdik. Amma bu səlahiyyətlər bu günə qədər bələdiyyələrə hələ tam keçməyib. Bir il 2 ay artıq başa çatıb. Bu məsələnin də sürətləndirilməsinə çox ehtiyac var.

Ziyafət müəllim, əgər yarım dəqiqə də vermək mümkündürsə, bir məsələni də diqqətə çatdırmaq istəyirəm.

**Sədrlik edən.** Buyurun, davam edin.

**Q.Paşayeva.** Bu məsələləri diqqətdə saxlayaraq, dəstəkləyərək, bu istiqamətdə daha da fəallıq göstərərək maarifləndirməni artırmalıyıq ki, üzümüzə gələn seçkilərdə savadlı, bu sahədə işləri yaxşı bilən gənc insanlarımız bələdiyyə seçkilərində daha çox iştirak etsin və inanırıq ki, növbəti seçkilərdən sonra bu institutda keyfiyyət dəyişikliklərində ciddi irəliləyiş olacaq.

Sonda demək istəyirəm, Ziyafət müəllim, zaman çatmamışdı. Mən öz seçki dairəmdən gəlirəm və şəhid ailələrimiz cənab Prezidentə təşəkkürlərini çatdırmağımı istədilər. Bütün şəhid ailələri vurğuladılar ki, onlar Ali Baş komandanın arxasındadırlar və bu diqqəti, qayğını çox yüksək qiymətləndirirlər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa.

**F.Mustafa.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın fəaliyyəti ilə bağlı məruzəni dinlədik.

Hər hansı xüsusi bir iradım yoxdur. Çünki onların funksiyası bələdiyyələrin qəbul elədiyi aktların qanunvericiliyə uyğunluğunun və bütövlükdə bələdiyyə işində qanunçuluğun təmin edilməsinin qanunvericilik qaydasında yoxlanması idi. 72 mindən artıq inzibati aktın üzərində hər hansı bir təhqiqat aparıblar. Bunların da 90 faizinin qanuna uyğun olduğu göstərilibdir. Bunlar öz yerində. Amma bu məruzənin əsas məğzi haradadır? Burada bir abzas var, orada "yatır". Ölkə bələdiyyələrinin çoxu yerli sosial-iqtisadi problemlərin həllində fəal iştirak etsələr də, onların gördüyü işlər barədə ictimaiyyətə geniş məlumat verilmir. Bələdiyyələrin daha aktiv fəaliyyət göstərməsi, yaxşı iş təcrübəsinin mətbuatda işıqlandırılması və yayınması önəmli olduğundan bu sahəyə diqqət yetirilməlidir. Elə bil ki, Almaniya televiziyası gəlib Azərbaycan bələdiyyələrinin fəaliyyətini göstərməlidir. Bu fəaliyyət yoxdur axı. Hansı fəaliyyətdən söhbət gedir? Bələdiyyənin spesifik, özünə aid olan fəaliyyətini həyata keçirmək imkanı yoxdur. Bilirsiniz, ən məntiqli qanunu nədə qəbul eləmişik. Qəbiristanlıqların salınması, onların abadlaşdırılması işi bələdiyyələrə tapşırılır. Çünki bələdiyyənin dirilər ilə bağlı görəcəyi ciddi bir iş yoxdur, lakin ölülərlə bağlı işlər görə bilər. O funksiyanı da çox güman ki, layiqincə yerinə yetirəcəklər. Orada bələdiyyələrin vəsaiti yoxdur, imkanı yoxdur. Biz bələdiyyələrin inkişafında niyə maraqlı deyilik? Bu sualı açıq dilə gətirmək lazımdır.

Artıq bu il bələdiyyə seçkiləri keçirilir. Biz bələdiyyələrin yenidən formalaşması üçün qanunvericilik bazasını daha da təkmilləşdirməliyik. Baxın, bələdiyyələr ərazi xəritələrini hələ də əldə edə bilmirlər. Hansı ərazinin konkret bələdiyyəyə məxsus olması barədə mübahisələr hələ də davam etməkdədir.

Biz bir çox yerlərdə qəbulda çox oluruq, insanları qəbul edirik. 2018-ci ildə təqribən 1000 nəfərə yaxın insanı qəbul etmişəm. Mən özüm statistika aparmışam ki, bu insanların əsas tələbi nədir? Mənim təhlilimə görə, bu insanların haradasa 550 nəfəri iş istəyir. Yəni bu, işsizliyin səviyyəsinin göstəricisidir. Haradasa 250-ə yaxın insan dolanışıq üçün qəpiyi, pulu olmadığına görə pul istəyir. İndi bunun içində sui-istifadə edən də var, başqası da ola bilər. 150 nəfərdən artıq insan məhkəmələrin verdiyi ədalətsiz qərardan şikayət edir. Təqribən 50–60–100 nəfər adam da müxtəlif mövzularda tələblər irəli sürür.

Bu yaxınlarda Sosial Təhqiqatlar Mərkəzi yaradıldı. Çox hörmətli Zahid müəllim layiqli namizəd kimi ölkə Prezidenti tərəfindən oraya sədr təyin olundu. Hesab edirəm ki, bu reallıqları Azərbaycan cəmiyyətində artıq dilə gətirmək lazımdır və göstərmək lazımdır ki, bələdiyyələrin inkişafı iş yerlərinin genişlənməsinin əsas stimuludur. Mən məsələni burada dəfələrlə qaldırdım. Bu mənzillər artıq istifadəyə verilib. Vətəndaş pulunu ödəyib, bina təhvil verilir, verilmir, bu onun öz işidir. Onu özəlləşdirmək lazımdır ki, oradan bələdiyyə əmlak vergisi ala bilsin, bələdiyyəyə, heç olmasa, oradan pul gəlsin. Böyük əksəriyyət – 80 faiz bu pulu ödəmir. Yəni bələdiyyənin qazanc üçün pul yerləri kifayət qədər çoxdur. Heç bir bələdiyyə layihəsini həyata keçirmək imkanına sahib deyil. Diqqət edirsinizsə, indi bizdə ümumi qaydalarda gördük. Heç bir bələdiyyədə ali təhsili olmayan adam yoxdur. Bu ali təhsili olmayanların içində fəal olan insan yoxdur? Problemi yerli səviyyədə həll eləyən insan yoxdur? Artıq bu tendensiyanı da dəyişmək lazımdır. Bələdiyyələrə cəmiyyətin bir az fəal insanlarının gəlməsinə şərait yaratmalıyıq ki, yerlərdə bu problemlərin həllini

öz üzərlərinə götürsünlər.

Bir çox hallarda bələdiyyələrin ənənəsi nədir? Keçən il bələdiyyə 130 dəfədən artıq məhkəməyə verilibdir. Cinayət törədənləri məhkəməyə vermək lazımdır. Amma bələdiyyələrin, bələdiyyə sədrlərinin kiçik xətalara görə günlərlə məhkəmə dəhlizlərində sürünməsi... İradlar, əsasən, nə olur? Təkbaşına qərar verib. Guya təkbaşına qərar verməyən kim var ki? Bütün qurumlarda təkbaşına qərar verilir. Yəni bu, bəhanədir, əgər cinayət xarakterli iş varsa, bunun üzərinə getmək olar. Amma bütövlükdə bələdiyyə sədrlərini məhkəmə dəhlizlərində məşğul etmək, əslində, onları işdən ayırmaq kimi bir şeydir. O baxımdan da, məncə, bu tendensiyanı bir az azaltmaq lazımdır. Ümumiyyətlə, mən məruzəyə müsbət səs verəcəyəm. Amma bütövlükdə bu, orqanın fəaliyyəti ilə deyil, bizim bələdiyyənin mahiyyətinə olan münasibətimizlə bağlı məsələdir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, təşəkkür edirəm, hörmətli deputatlar. İllik məruzə kifayət qədər müzakirə edildi. Əgər başqa çıxış etmək istəyən yoxdursa, xahiş edirəm, bu məruzəyə münasibətimizi bildirməliyik, nəzərə almalıyıq. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Vilayət müəllim, işlərinizdə uğurlar! Sizi təbrik edirəm.

Hörmətli deputat həmkarlarım, növbəti 3 məsələ cənab Prezidentin bir məktubu ilə daxil olub. İcazənizlə, mən onları sizə təqdim edim. “2010-cu il 18 noyabr tarixli “Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında” Sazişə Xəzər dənizində mütəşəkkil cinayətkarlıqla mübarizədə əməkdaşlıq üzrə” Protokolun təsdiq edilməsi, həmin Saziş ilə bağlı terrorçuluqla mübarizədə əməkdaşlıq üzrə Protokolun təsdiq edilməsi və Sərhəd orqanları arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət üzrə Protokolun təsdiq edilməsi haqqında qanun layihələri müzakirənizə çıxarılır. Əvvəla, onu deyim ki, keçən il, yəni 2018-ci il avqustun 12-də Xəzəryanı dövlətlərin iştirakı ilə, Xəzər dənizinin statusu ilə bağlı saziş imzalandı. Bu, həqiqətən, çox tarixi bir saziş idi. Çünki uzun illərdir, demək olar ki, 22 ilə yaxın bir müddətdə bu saziş üzərində iş gedirdi və onun bağlanması, qəbul olunması, sözsüz ki, digər Xəzəryanı dövlətlər kimi Azərbaycanın da milli maraqlarına, dövlət maraqlarına olduqca cavab verən bir sənəddir. Burada Azərbaycanın və digər dövlətlərin maraqları, təbii ki, nəzərə alınıb və konsensus bir sənəd ortaya çıxdı. Bax, həmin sənədin qəbul edilməsi ilə bağlı bu protokollar təklif olunur ki, təsdiq edilsinlər.

Mən protokolların mahiyyəti ilə bağlı bir neçə kəlmə demək istəyirəm. Cinayətkarlıqla mübarizə və hüquq mühafizə, insan hüquq və azadlıqlarının müdafiəsinin təmin olunması sahəsində Xəzəryanı dövlətlərin əməkdaşlığının inkişaf etdirilməsinin əhəmiyyəti, mütəşəkkil cinayətkarlığın yayılmasından, həmçinin mütəşəkkil cinayətkarlıq fəaliyyətinin mənfi sosial və iqtisadi nəticələrindən narahatlığını bildirərək beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normaları əsasında tərəflərin əməkdaşlığını inkişaf etdirməyə və möhkəmləndirməyə qar-

şılıqlı hazır olduqlarını nəzərə alaraq, eyni zamanda, terrorizmə qarşı mübarizənin gücləndirilməsi, dövlətlərin terrorla təhdid olunmasının qarşısının alınması məsələləri, sərhəd qoşunları arasında, yəni Xəzərətrafı dövlətlərin sərhəd qoşunları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi və gücləndirilməsi ilə bağlı məsələlər burada öz əksini tapır. Bir daha qeyd etmək istəyirəm ki, hər üç sənəd Azərbaycan dövlətinin milli maraqlarına tam cavab verir və sizi bu sənədlərə müsbət səs verməyə, rəy verməyə dəvət edirəm. Protokollarla, qanun layihələri ilə bağlı çıxış etmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda xahiş edirəm, 2-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.47 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Xahiş edirəm, 3-cü məsələyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.
4-cü məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti 5-ci məsələ "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsidir. Valeh müəllim, buyurun.

**V.Ələsgərov,** *Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Ziyafət müəllim, Sizin geniş təqdimatınızdan sonra Konvensiyanın təqdimatına ehtiyac varmı? Yəqin ki, yoxdur. Yeganə əlavə edim ki, bu Konvensiya artıq 5 ölkədən 2-si tərəfindən ratifikasiya edilibdir, qalan ölkələrdə də bizdə gedən proses gedir və bu yaxınlarda qalan 3 ölkə də, o cümlədən Azərbaycan ratifikasiya edib, depozitariyə təqdim edəcək, bu Konvensiya qüvvəyə minəcək və tərəflər arasında mövcud olan, ya da gələcəkdə yarana bilən problemlərin həllinin hüquqi çərçivəsini müəyyən edən bir konvensiya qüvvədə olacaqdır. Təşəkkürlər.

**Sədrlik edən.** Sağ olun. Buyurun, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.50 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Oqtay Əsədov** sədrlik edir*

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

6-cı məsələ "Xəzəryanı dövlətlərin hökumətləri arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədədir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Hörmətli Ziyafət müəllim və Valeh müəllim Xəzəryanı ölkələrlə əlaqədar fikirlərini kifayət qədər bildirdilər. Bu Sazişin məqsədi Xəzər regionunun əsas beynəlxalq nəqliyyat və logistika qovşağı kimi formalaşdırılması və inkişafı ilə əlaqədardır. Hesab edirəm ki, Sazişdə qaldırılan məsələlər Xəzərin statusunun qəbul edilməsi ilə əlaqədar və orada müəyyən edilmiş məsələlərin həllinə öz müsbət təsirini göstərəcəkdir. Millət vəkillərindən bu qanun layihəsinə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Əgər başqa fikir yoxdursa, xahiş edirəm, Sazişə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.51 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |

| | |
|---|---|
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

7-ci məsələ "Xəzər dənizində insidentlərin qarşısının alınması haqqında" Sazişin təsdiq edilməsi barədədir. Ziyafət Əsgərov buyursun.

**Z.Əsgərov.** Çox sağ olun, hörmətli cənab Sədr. Hörmətli deputatlar, bu saziş də bayaq sadaladığım, müzakirə etdiyimiz və səsə qoyduğumuz protokolların ruhuna oxşar bir qanun layihəsidir. Bu Saziş Xəzər dənizində üzən hərbi gəmilərin və hava gəmilərinin təhlükəsizliyini təmin etmək, eyni zamanda, bu sahədə mövcud olan beynəlxalq hüquq, norma və prinsiplərin daha da düzgün tətbiq olunması məqsədi ilə imzalanıb və xahiş edirəm, müsbət münasibət bildirəsiniz.

**Sədrlik edən.** Xahiş edirəm, Sazişə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.52 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Bu qəbildən sonuncu məsələ "Xəzəryanı dövlətlərin hökumətləri arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədədir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət

vəkilləri, təqdim olunan Sazişə əsasən tərəflər sənaye, kənd təsərrüfatı, ticarət, turizm və digər iqtisadi sahələrdə əməkdaşlıqlarını davam etdirməlidirlər. Burada birgə investisiya layihələrinin həyata keçirilməsi, xüsusi və azad iqtisadi zonaların yaradılması və inkişafı sahəsində təcrübə mübadiləsi, rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlıq, birgə müəssisələrin yaradılması nəzərdə tutulur. Azərbaycan tərəfindən bu Saziş üzrə səlahiyyətli orqan İqtisadiyyat Nazirliyi müəyyən edilmişdir. Millət vəkillərindən bu qanun layihəsinə də səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Xahiş edirəm, Sazişə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.54 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti bəyanat və sazişlər Azərbaycan ilə Türkmənistan arasında olan münasibətlərə aiddir. Gündəliyin 9-cu məsələsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Birgə Bəyanatının təsdiq edilməsi haqqında qanun layihəsidir. Buyursun Səməd Seyidov.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, Oqtay müəllim. Hörmətli millət vəkilləri, Azərbaycan–Türkmənistan münasibətlərində xüsusi əhəmiyyət kəsb edən həm bu bəyanat, həm də bundan sonra

təqdim olunacaq sazişlər tarixi əhəmiyyət daşıyan sənədlər kimi qiymətləndirilməlidir. Cənab Prezidentin səfəri zamanı Azərbaycan və Türkmənistan arasında müxtəlif sahələri əhatə edən 20-dən çox sənəd imzalanmışdır və bu bəyanatda Azərbaycan–Türkmənistan münasibətləri tamamilə yeni mərhələyə yüksəlmişdir. Bu, Azərbaycanın maraqlarına tam uyğun olan bir bəyanatdır. Eyni zamanda, Azərbaycan və Türkmənistan münasibətlərini çoxtərəfli, xüsusilə ikitərəfli inkişaf etdirən bir sənəd kimi qiymətləndirilməlidir. Bundan irəli gələn, həmkarlarımın təqdim edəcəyi digər sənədlər də, sazişlər də məhz bu bəyanatın fəlsəfəsindən, məzmunundan doğan və formalaşan sənədlər kimi təqdim olunub. Ona görə həmkarlardan xahiş edirəm, buna müsbət münasibətlərini bildirsinlər. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı.

**F.Ağamalı.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli həmkarlar, mən Səməd Seyidovun fikirlərini tamamilə bölüşürəm, kifayət qədər yüksək əsası olan fikirlər söylədi. Eyni zamanda, demək istəyirəm ki, iki qardaş ölkə – Azərbaycan və Türkmənistan arasında münasibətlərin yüksək səviyyədə inkişafında mühüm rol oynayacaq sənədlərin bu gün Milli Məclisdə ratifikasiyası ciddi hadisələrdən biri kimi dəyərləndirilməlidir. Ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi təmkinli, uzaqgörən və müdrik xarici siyasət bütün spektrlərdə olduğu kimi, Türkmənistan–Azərbaycan münasibətlərinə də uğur gətirdi. Xəzər dənizinin statusunda özünü göstərən fərqli yanaşmalar aradan qaldırıldı, ölkələrimiz arasında dostluq və strateji əməkdaşlığın möhkəm təməli qoyuldu. Əminəm ki, bu sənədlər Azərbaycan və Türkmənistanla bərabər, bütövlükdə türkdilli dövlətlər arasında münasibətlərin və

qarşılıqlı əlaqələrin güclənməsinə ciddi təsir göstərəcəkdir. Azərbaycan və Türkmənistanın strateji əməkdaşlığının güclənməsində müstəsna xidmətləri olan Prezidentimiz İlham Əliyev bununla türkdilli ölkələr arasında da əlaqələrin daha möhkəm təməllər üzərində inkişafında növbəti töhfəsini vermiş oldu. Təşəkkür edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.58 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Növbəti 10-cu məsələ "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikası və Türkmənistan ərazilərindən keçməklə həyata keçirilən beynəlxalq daşımalar iştirakçıları üçün viza rejiminin sadələşdirilməsi haqqında" Sazişin təsdiq edilməsi barədədir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Oqtay müəllim, 10, 11, 12, 13, 14, 15-ci məsələlər Türkmənistan Respublikası ilə əlaqədar olan sazişlərdir. Əgər məsləhət olarsa, mən ardıcıl məlumat verərəm, sonra səsverməyə qoyarıq.

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, təqdim olunan 10-cu məsələdə – Sazişdə tərəflər öz dövlətlərinin ərazilərindən daşımalarının həyata keçirilməsi üçün daha əlverişli şərait yaratmaq məqsədi ilə daşımaların iştirak-

çıları üçün vizaların verilməsinin sadələşdirilməsi haqqında razılaşmaya gəliblər. Tərəflər öz ərazilərindən beynəlxalq yükdaşımalarını həyata keçirən avtonəqliyyat vasitələrinin sürücülərinə, habelə dəniz limanlarının işçilərinə bir ilədək etibarlılıq müddəti olan birdəfəlik, ikidəfəlik və ya çoxdəfəlik viza rəsmiləşdirirlər. Burada, o cümlədən elektron vizaların da rəsmiləşdirilməsi nəzərdə tutulur. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi bu Sazişin müddəalarının icrası üzrə səlahiyyətli orqanlar qismində müəyyən ediliblər.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında nəqliyyat, tranzit və logistika məsələləri üzrə Azərbaycan–Türkmənistan Birgə Komissiyasının yaradılması haqqında" Sazişdə Birgə Komissiyanın əsas vəzifələri, həmin vəzifələrin yerinə yetirilməsi üçün Komissiyanın həyata keçirəcəyi tədbirlər müəyyən edilmişdir. Birgə Komissiya tərəflərin nümayəndələrindən ibarət olmaqla ildə bir dəfədən az olmayaraq iclaslarını keçirəcək və öz qərarlarını konsensus əsasında qəbul edəcək.

Növbəti Saziş "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" sənəd hesab edilir. Burada sərmayələrin qorunmasının vacibliyindən, investisiya axınının stimullaşdırılmasından irəli gələn məsələlər öz əksini tapmışdır. Razılığa əsasən tərəf digər tərəfin sərmayəçilərinin sərmayələrinə yardım göstərməli, bu sərmayələri qəbul etməli, onlar üçün əlverişli rejim tətbiq etməli, onların qorunmasını və təhlükəsizliyini təmin etməlidir.

Növbəti bir Saziş "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında gəlirlərə və əmlaka

görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" sənəddir. Sənəddə Azərbaycan Respublikasında aşağıdakı vergilər tətbiq ediləcək:

fiziki şəxslərin gəlir vergisi;

hüquqi şəxslərin mənfəət vergisi;

əmlak vergisi və torpaq vergisi.

Sazişdə onun müddəalarının hansı şəxsləri əhatə etdiyi qeyd edilməklə, hansı növ gəlir və əmlakın vergiyə cəlb edilməsi və ya vergidən azad edilməsi göstərilmişdir. Bu növ sazişlər Milli Məclis tərəfindən dəfələrlə qəbul edilmişdir. Hesab edirəm ki, bu da təqdirəlayiq bir haldır.

Sonuncu saziş, yəni 14-cü məsələ tərəflərin, ölkələrin gömrük orqanları arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkilini müəyyən edir. İlkin məlumat dedikdə, gömrük əməliyyatı və prosedurlarının həyata keçirilməsindən sonra gömrük sərhədindən keçirilən mallar və nəqliyyat vasitələri haqqında tərəflərin elektron qaydada ötürdüyü informasiya nəzərdə tutulur. İlkin məlumat mübadiləsinin təşkili xarici iqtisadi fəaliyyət iştirakçıları üçün əlverişli şərait yaradılması, ticarətə yardım üzrə tədbirlərin görülməsi zərurətindən irəli gəlir. Bütün bu sazişlər, heç şübhəsiz ki, Azərbaycanla Türkmənistan arasında iqtisadi əməkdaşlığın daha da genişlənməsinə, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmlənməsinə xidmət edəcəkdir. Ona görə də millət vəkillərindən xahiş edərdim ki, bu qanun layihəsinə ayrı-ayrılıqda səs versinlər.

**Sədrlik edən.** Çox sağ olun. Əgər sazişlərə başqa bir təklif yoxdursa, xahiş edirəm, gündəliyin 10-cu məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.03 dəq.) |
|---|---|
| Lehinə | 109 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
Gündəliyin 11-ci məsələsinə münasibət.

| **Səsvermənin nəticələri** | (saat 14.03 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
Gündəliyin 13-cü məsələsinə münasibət.

| **Səsvermənin nəticələri** | (saat 14.04 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
Nəhayət, gündəliyin 14-cü məsələsinə münasibət.

| **Səsvermənin nəticələri** | (saat 14.04 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Sazişlər qəbul edildi.

İndi tənəffüs vaxtıdır, əgər etiraz yoxdursa, iclası fasiləsiz keçirək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Oldu, çox sağ olun, qəbul edildi.

Gündəliyin 15-ci məsələsi – "Gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" 1994-cü il 15 aprel tarixli Sazişdə dəyişikliklər edilməsi barədə" Protokolun təsdiq edilməsi haqqında buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, Gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında qanun layihəsində təklif olunan dəyişikliklər gömrük əməliyyatlarının sadələşdirilməsini, narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və digər qadağan edilmiş əşyaların qanunsuz dövriyyəsini, gömrük qanunvericiliyinə riayət olunmasına dair yoxlamaları, qarşılıqlı yardımın göstərilməsini, şəhadətnamələri, sorğuları, xidməti sənədləri və sair məsələləri əhatə edir. Məqsəd gömrük sərhədlərindən malların və nəqliyyat vasitələrinin keçirilməsi ilə bağlı gömrük münasibətlərinin tənzimlənməsindən, gömrük qanunvericiliyinə riayət edilməsinin təmin olunmasından, gömrük hüquqpozmalarının xəbərdar edilməsindən, qarşısının alınmasından, təhqiqatın aparılmasından və gömrük işinin müxtəlif istiqamətləri üzrə təcrübə mübadiləsindən ibarətdir. Yuxarıda qeyd edilən dəyişiklikləri nəzərə alaraq qanun layihəsinə münasibət bildirməyinizi xahiş edirəm.

**Sədrlik edən**. Sağ olun. Əgər başqa əlavə yoxdursa,

xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.07 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 16-cı məsələsi "Cinayət işləri üzrə maddi sübutlar olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, odlu silahın, onun əsas hissələrinin, hərbi sursatların, partlayıcı maddələrin və partlayıcı qurğuların verilməsi qaydası haqqında" Protokolun təsdiq edilməsi barədədir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Cənab Sədr, Siz adını səsləndirdiniz. Hörmətli millət vəkilləri, Protokol MDB dövlət başçılarının Soçi şəhərində keçirilmiş Sammitində imzalanmışdır. Həmişə olduğu kimi, Azərbaycan Dağlıq Qarabağın işğalı ilə bağlı qeyd-şərti də buraya əlavə etmişdir. Səs verilməsini xahiş edirəm.

**Sədrlik edən**. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.09 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 17-ci məsələsi Azərbaycan Respublikasının Konsul Nizamnaməsinə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Buyursun Səməd Seyidov.

**S.Seyidov**. Hörmətli cənab Sədr, hörmətli həmkarlar, texniki xarakter daşıyan bu dəyişiklik iki qanunun bir-birinə uyğunlaşdırılması fəlsəfəsini daşıyır və buraya üç ifadə – “xaricdə yaşayan”, “müddətli” və “müvafiq icra hakimiyyətinin orqanına” sözləri əlavə olunur. Bu iki qanunun uyğunlaşdırılması, xahiş edirəm, müsbət münasibətlə özünü göstərsin.

**Sədrlik edən**. Sağ olun. Aydın Mirzəzadə.

**A.Mirzəzadə**. Təşəkkür edirəm, cənab Sədr. Mən təklifi, ümumən dəstəkləyirəm, amma 30-cu maddədə bir ifadə diqqətimi cəlb edir. Yazır ki, “18 yaşına çatmış vətəndaşlarının müvafiq icra hakimiyyəti orqanına gəlməsini təmin edir”. “Təşkil edir”, “texniki məsələləri həll edir” yazmır. Yaxşı, xaricdə yaşayan 18 yaşına çatan çağırışçı birdən gəlməkdən imtina etdi, yaxud da ki, qaçdı, gizləndi. O zaman məsuliyyəti onunla bərabər konsul da daşıyır, çünki vətəndaşın gəlməyini təmin edə bilməyib. Ona görə mən çox istərdim ki, “təmin edir” sözü digər hüquqi terminlə əvəz edilsin. Çünki o, ancaq təşkil edə bilər, texniki məsələləri həll edə bilər. Amma o çağırışçının, ümumiyyətlə, xaricdən Azərbaycana gəlməsinin tam təmin edilməsinə məsuliyyət daşıya bilməz. Çünki məsuliyyətin bir hissəsi ondan asılı deyil. Təşəkkür edirəm.

**Sədrlik edən.** Buyurun, Səməd müəllim.

**S.Seyidov**. Oqtay müəllim, mən Aydın müəllimin fikirlərini başa düşürəm, ancaq söz tam yerindədir və təmin etmək birbaşa həmin strukturun vəzifəsidir, bu, həmin strukturun əsasnaməsində əks olunmuş və əks etdirilmiş

bir bənddir. Ona görə biz həmin strukturun əsasnaməsini belə dəyişdirə bilmərik.

**Sədrlik edən**. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.10 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 18–20-ci məsələlər bir zərfdə gəlib. "Valyuta tənzimi haqqında" Qanunda dəyişiklik edilməsi barədə buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi dəqiqləşdirilmə və valyuta mübadiləsi fəaliyyətinə lisenziyaların verilməsi prosedurunun sadələşdirilməsi məqsədi ilə hazırlanmışdır. "Valyuta tənzimi haqqında" Qanunun 13.2.5-ci maddəsinə əsasən maliyyə bazarlarına nəzarət orqanı valyuta mübadiləsi fəaliyyətinə lisenziyanın verilməsi məsələsini həll edərkən onu müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmalı idi. "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə" 2017-ci il 25 aprel tarixli Qanunun tətbiqi" haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən bu orqan Azərbaycan Respublikasının Prezidentidir. Hazırda təklif olunan dəyişikliyə əsasən bu

razılaşdırma proseduru aradan qaldırılır və valyuta tənzimlənməsi məsələlərinə lisenziya verilməsi Maliyyə Bazarlarına Nəzarət Palatasına həvalə edilir. Ona görə də bu, çox dəqiq, düzgün dəyişiklikdir. Millət vəkillərindən bu qanun layihəsinə də səs vermələrini xahiş edərdim.

Digər Qanun – Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında qanun layihəsinin maliyyə bazarları sahəsində aparılan yoxlamalara şamil edilməməsi məqsədi ilə hazırlanmışdır. Maliyyə bazarlarının, yəni bank, sığorta, qiymətli kağızlar və digər maliyyə sektorlarının dövlət həyatında tutduğu yer və rol tələb edir ki, bu sahədəki fəaliyyətin tənzimlənməsinə və nəzarətə daha ciddi və fərdi yanaşmalar tətbiq edilsin, eləcə də bu sahədə aparılan yoxlamaların özünəməxsusluğu nəzərə alınsın. Qeyd olunanları əsas tutaraq, maliyyə bazarları sahəsində yoxlamaların ayrıca qanunla tənzimlənməsi nəzərdə tutulur. Məlumat üçün bildirmək istəyirəm ki, yaxın vaxtlarda bu qanun layihəsi də Milli Məclisə təqdim ediləcəkdir.

“Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər aşağıdakıları nəzərdə tutur:

Maliyyə bazarları sahəsində aparılan yoxlamalara tətbiq edilən məhdudiyyəti aradan qaldırmaq məqsədi ilə hazırlanan bu Qanuna əsasən ölkədə sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci il yanvarın 1-dək dayandırılmışdır. Lakin insanların həyat və sağlamlıqlarının qorunması, dövlətin təhlükəsizliyinin və iqtisadi maraqlarının müdafiəsi məqsədi ilə Qanunun 2.1-ci maddəsində göstərilən hallarda yoxlamaların həyata keçirilməsinə yol verilir. Təklif olunan dəyişikliyə əsasən bu siyahıya maliyyə bazarları sahəsində aparılan yoxlamalar da əlavə edilir.

Millət vəkillərindən bir məktubda daxil olmuş hər üç qanun layihəsinə ayrı-ayrılıqda səs vermələrini xahiş edərdim.

**Sədrlik edən**. Başqa təklif yoxdursa, xahiş edirəm, gündəliyin 18-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.15 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 19-cu məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.15 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 20-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.16 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 21-ci məsələsi "İcra haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyurun, Əli Hüseynli.

**Ə.Hüseynli**. Hörmətli həmkarlar, bu layihə uyğunlaşdırma xarakterlidir. "İcra haqqında" Qanunun "Notariat haqqında" Qanuna uyğunlaşdırılmasıdır. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən**. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.17 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 22-ci məsələsi "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişikliklər edilməsi barədədir, birinci oxunuşdur. Buyursun Ziyafət Əsgərov.

**Z.Əsgərov**. Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli deputatlar, bu qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır. Bildiyiniz kimi, bizim "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haq-

qında" Qanunumuz var. O Qanunun tələblərinə uyğun olaraq həqiqi hərbi xidmətə çağırılmış Azərbaycan vətəndaşlarının qeydiyyatdan keçməsi məcburidir. Belə bir müddəa əlavə olunur. Sağ olun.

**Sədrlik edən**. Xahiş edirəm, 22-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.18 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

23-cü məsələ "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli**. Hörmətli həmkarlar, bu layihə kiçik, amma əhəmiyyətlidir. Belə ki, layihəyə əsasən yazılı test imtahanında vəkillər və müvəffəqiyyət qazanmayanlar varsa, həmin şəxslərə yenidən ixtisas imtahanında iştirak etmək imkanı verilir. İndiyə qədər əgər vətəndaş yazılı test imtahanından keşməmişdirsə, belə bir məhdudiyyət mövcud idi.

İkincisi vəkillər kollegiyasının üzvlük haqqı ilə bağlıdır. Vəkillik fəaliyyətinin dayandırıldığı dövrdə onun ödənilməməsi təklif olunur. Hər iki təklif vəkillik fəaliyyətində, belə deyim, çox liberal bir addımdır və səs verilməsini xahiş edirəm.

**Sədrlik edən**. Elmira Axundova.

**E.Axundova**. Çox sağ olun, hörmətli Sədr. Əli müəllim, deyəsən, burada anlaşılmazlıq var. Əvvəla, 13-cü maddədə – "Vəkillərin İxtisas Komissiyası"nda 8-ci bəndə, həm əvvəlki, həm də indiki varianta baxın. Söhbət ondan gedirdi, ixtisas imtahanından keçə bilməyən şəxs 1 ildən sonra təkrarən imtahana buraxıla bilər. Ancaq təzə variantda söhbət ancaq şifahi müsahibədən gedir. İzahatda isə siz yazırsınız ki, "yazılı test imtahanında müvəffəqiyyət qazanmayan şəxsə yenidən ixtisas imtahanında iştirak etmək imkanı verilir". Bu nə deməkdir? Yəni yazılı test imtahanından keçməyən şəxs dərhal təkrar imtahan verə bilər. Amma 8-ci bənddə bu barədə heç nə yazmırsınız. Ancaq şifahi müsahibəni keçməyən şəxsə bir ildən sonra... Vəziyyət belədir. Onda siz nəyə görə izahatda yazılı imtahandan söhbət açırsınız, yazırsınız, amma bu, 8-ci bənddə əks olunmur. Xahiş edirəm, izah eləyəsiniz.

**Sədrlik edən**. Sağ olun. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev**. Təşəkkür edirəm, Oqtay müəllim. Ümumiyyətlə, düşünürəm ki, "Vəkillik haqqında" Qanun yenidən işlənməlidir. Biz burada dəfələrlə məsələ qaldırmışıq ki, vəkilliyə qəbul sadələşdirilməlidir. Əlbəttə, Qanunun 1-ci maddəsində edilən dəyişikliyə görə, 1 il ərzində iki dəfə, yəni ildə bir dəfədən az olmayaraq, ixtisas imtahanı keçirilə bilər. Mən hesab edirəm ki, bu məhdudiyyəti qoymağa, ümumiyyətlə, ehtiyac yoxdur. Burada konkret yazaq ki, hər 6 aydan bir bu imtahanlar keçirilir.

İkinci, burada 13-cü maddədə dəyişiklik edilir ki, müsabiqədən keçməyən şəxs 1 il ərzində ixtisas imtahanına buraxılmır. Əgər 1 il ərzində iki imtahan keçirilirsə, növbəti imtahana niyə buraxılmasın? Misal üçün deyirəm. Ona görə də hazırda Dövlət İmtahan Mərkəzi dövlət qulluğuna qəbulla bağlı çox gözəl bir presedent yaradıb.

Biz “Dövlət qulluğu haqqında” Qanuna dəyişiklik elədik, yəni imtahandan keçən şəxsə 5 il müddətində qüvvədə olan sertifikat verilir və həmin sertifikat əsasında həmin şəxs növbəti müsabiqələrdə iştirak edir. Müsabiqələr arasındakı zaman, hətta 2–3 ay da ola bilər.

Ölkəmizdə vəkillərin sayı azdır. Biz dəfələrlə danışmışıq ki, vəkillərin hər 10 min nəfərə düşən sayına görə Avropa ölkələrindən 8 dəfə, hətta 20 dəfə geri qalırıq. Belə olduğu halda, bu məhdudiyyətləri niyə qoyuruq, niyə insanları incidirik? Gəlin, burada yazaq ki, 5 il ərzində ixtisas imtahanı verən şəxsə sertifikat verilir. Dövlət qulluğunda olduğu kimi, hər növbəti müsabiqədə də onların iştirak eləmək hüququnu tanıyaq. Yəni vəkillik dövlət qulluğundan vacib deyil ki. Dövlət qulluğunda bu təcrübəni tətbiq eləmişiksə, gəlin, vəkillərə də bu səlahiyyəti, bu hüququ verək. İnanın, sizə deyim ki, minlərcə insanın, onların ailələrinin, qohumlarının vəziyyətini yaxşılaşdırarıq, hamısı dövlətdən, hökumətdən razı olar, yəni insanları incitmərik. İndiki hal, sadəcə olaraq onların incidilməsidir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən**. Sağ olun. Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun, cənab Sədr. Vəkillik fəaliyyəti ilə əlaqədar məsələlərlə, təkliflərlə bağlı indi polemika açmaq istəməzdim. Bu fikirlərə baxılar. Hörmətli Elmira xanım, təqdim olunan layihənin “Vəkillərin İxtisas Komissiyası” adlanan 13-cü maddəsinin 8-ci bəndində belə yazılıb: “İxtisas imtahanını verə bilməyən şəxs”. “Vəkillik haqqında” Qanuna görə, ixtisas imtahanı 2 mərhələdən ibarətdir. Bunlar digər maddələrdədir, yəni arayışda təqdim olunmalı deyildi. “İxtisas imtahanı verə bilməyən şəxs 1 ildən tez olmamaqla imtahana buraxıla bilər”. Təklif olunan variant: “İxtisas imtahanının şifahı müsahibə

mərhələsini müvəffəqiyyətlə keçə bilməyən şəxs”. Əslində, burada hər şey düzgün yazılıb. Bu o deməkdir ki, yazılı artıq çıxdı, yəni yazılı imtahanı verə bilməyən şəxslərə bu məhdudiyyət şamil olunmur. Bu, indiyə qədər həm yazılı, həm də şifahi mərhələ üçün idi. “Şifahi müsahibə mərhələsi” sözlərini bura yazmaqla biz yazılı mərhələni istisna etdik. Beləliklə, bundan sonra yazılı mərhələni keçə bilməyən elan olunan kimi yenə də yazılı mərhələyə qatıla biləcək. Bu da müəyyən mənada təcrübədən irəli gəlir. Çünki vəkillik imtahanlarından ən çox kəsilənlər, yəni imtahanı verə bilməyənlər, misal üçün, 1000 nəfər məhz birinci mərhələdə idi. Bu baxımdan burada bir ziddiyyət yoxdur və səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, 23-cü məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.24 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 24-cü məsələsi “Gənclər siyasəti haqqında” Qanunda dəyişikliklər edilməsi barədədir. Buyursun Ülvi Quliyev.

**Ü.Quliyev,** *Milli Məclisin Gənclər və idman komitəsinin sədri.*

Təşəkkür edirəm, cənab Sədr. Hörmətli millət vəkilləri, qeyd etmək istərdim ki, Azərbaycanda həyata keçirilən

gənclər siyasəti çox uğurludur, bu gün də öz bəhrəsini verməkdədir. Bu uğurlarımızın əsas səbəbi ondan ibarətdir ki, gənclər siyasətinin təməli məhz ulu öndər tərəfindən qoyulmuşdur və Prezidentimiz cənab İlham Əliyev tərfindən çox uğurla inkişaf etdirilir. Bütün bunlarla yanaşı, gənclər siyasətinə hər il maliyyə dəstəyi artırılır, gənclərlə bağlı bir çox qurumlar fəaliyyət göstərir. Gənclər və İdman Nazirliyi, Azərbaycan Gənclər Fondu, Prezident Administrasiyasında müvafiq şöbə, parlamentdə yaradılmış Gənclər və idman komitəsi və onların birgə fəaliyyəti bu siyasəti daha da uğurlu edir. Ən vacib məsələlərdən biri bu sahədə möhkəm qanunvericilik bazasının olmasıdır. "Gənclər siyasəti haqqında" Qanun 2002-ci ildə qəbul edilmişdir. 2007-ci ildə bu Qanuna bəzi dəyişikliklər edilmişdir. Bu Qanunun səmərəliliyini, effektivliyini təmin etmək üçün davamlı olaraq, artıq 3-cü "Azərbaycan Gəncliyi Dövlət Proqramı" icra olunur. Bu, 2017–2021-ci illəri əhatə edir. Bununla yanaşı, bu istiqamətdə olan daha bir ciddi sənəd cənab Prezident tərəfindən 2015-ci ilin yanvarında imzalanmışdır. Bu da 10 ili əhatə edən "Azərbaycan Gənclərinin İnkişaf Strategiyası"dır.

"Gənclər siyasəti haqqında" Qanun 14 maddədən ibarətdir. Bu Qanunda məhz bu gün edəcəyimiz, yəni təqdim etdiyimiz bu layihədə olan dəyişiklikləri zəruri edən əsas məqam məhz son illərdə qəbul olunmuş "Azərbaycan Gəncliyi Dövlət Proqramı" ilə bağlıdır. 2011–2015-ci və 2017–2021-ci illəri əhatə edən "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nda gənclərlə bağlı normativ hüquqi aktların təhlili və təkmilləşdirilməsi məsələləri məhz bu Qanunda dəyişikliklərin edilməsini zəruriləşdirmişdir.

Qanunda, bu layihə hazırlandıqda, ümumiyyətlə, bir

çox ölkələrin – Rusiyanın, Almaniyanın, Gürcüstanın, Ukraynanın, Türkiyənin təctrübələri öyrənilmişdir. Ümumiyyətlə, qanunda olan əlavə və dəyişikliklərdə, əsasən, redaktə və texniki xarakterli dəyişikliklər də var. Amma burada kifayət qədər fundamental, əsaslı dəyişikliklər də öz əksini tapmışdır.

Qısa olaraq, birinci oxunuş olduğu üçün konseptual baxımdan bəzi əsaslı dəyişiklikləri sizlərin nəzərinə çatdırmaq istəyirəm. 1-ci maddədə "gənclər təşkilatı" anlayışı yenidən verilmişdir. Burada "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə "Könüllülük fəaliyyəti haqqında" Qanunla bağlı gənclər təşkilatının 5 yeni anlayışı verilmişdir. Bununla yanaşı, 5 yeni anlayış da Qanuna gətirilmişdir: sosial müdafiəyə ehtiyacı olan gənclər qrupu, risk qrupunda olan gənclər, həmçinin gənc alim və tədqiqatçılar, tələbə özünüidarəetməsi və gənclərin könüllü fəaliyyəti. Bunların da Qanuna gətirilməsinin əsas səbəbi məhz "2015–2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nda bu yeni hədəflərin nəzərə alınması idi.

Bununla yanaşı, bir çox beynəlxalq hüquqi normaların məhz bu Qanuna, həmçinin yerli qanunvericiliyə implementasiya olunması da 3-cü maddədə öz əksini tapmışdır. Amma əsas dəyişiklik, 4-cü maddədədir. Burada da dövlətin vəzifəsinin spektri xeyli genişləndirilmişdir. Biz dövlətin öhdəliklərini artırdıqca, təbii ki, gənclərin hüquqlarını daha da genişləndiririk. Burada bir çox məsələlər – sahibkarlıq təşəbbüslərinin, yəni startapların dəstəklənməsi, dövlət gənclər siyasətində, dövlət proqramlarında, ümumiyyətlə, biliklərə yiyələnməsi sahəsində tədbirlərin, o cümlədən maarifləndirmənin həyata keçirilməsi, həmçinin gənclər təşkilatı vasitəsi ilə beynəlxalq gənclər

şəbəkəsinə inteqrasiyaya imkan və şəraitin yaradılması, Gənclər Fondunun fəaliyyətinin dəstəklənməsi, yüksək nailiyyətlər əldə etmiş gənclərin təbliğatına yönəlmiş tədbirlərin həyata keçirilməsi, aztəminatlı gənc ailələrə sosial müdafiə, gənc alim və tədqiqatçıların elmi fəaliyyətinin dəstəklənməsi, gənclər arasında könüllülük fəaliyyətinin təşviqi, ekstremizmin və radikalizmin qarşısının alınması, gənclərin fərdi inkişafı üçün qeyri-formal və informal təhsil almaq imkanlarının yaradılması, gənclərin sosial-iqtisadi və mədəni inkişafı üçün tədbirlərin həyata keçirilməsi, insanların şərəf və ləyaqətinin, şəxsi həyatının toxunulmazlığı hüququnun qorunmasına xələl gətirmədən gənclərin inkişafı, həmçinin yeni biliklərə yiyələnməsi məqsədi ilə informasiya texnologiyalarından, sosial şəbəkə və multi-media vasitələrindən istifadə üçün imkanların artırılması öz əksini tapmışdır. Burada çox vacib məqamlardan biri ondan ibarətdir ki, bu sadə qanunvericiliyin tələblərinə riayət olunması insanların şərəf və ləyaqətinin, onların şəxsi həyat toxunulmazlığının qorunmasının nəzarətinin təmin edilməsidir.

Bununla yanaşı, digər əsas məqamlardan biri 5-ci maddədə gənclərin mənəvi, əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı ilə bağlıdır. Burada da risk qrupunda olan gənclər, gənclər evi, sosial xidmət müəssisələrində göstərilən geniş spektrli xidmətlər təsbit olunur. Həmçinin 18 yaşa qədər olan gənclərin mənəvi, əxlaqi tərbiyəsinin təmin edilməsi, onların sağlam həyatının formalaşdırılması məqsədi ilə qadağanedici normalar nəzərdə tutulmuşdur. Düşünürəm ki, bu da müasir zamanda olduqca aktualdır. Burada tütün məmulatlarına, spirtli içkilərə, həmçinin mərc oyunlarına birbaşa və dolayı yolla gənclərə, 18 yaşa qədər olan gənclərə qadağanedici normaların qoyulması çox vacibdir.

Digər əsas dəyişikliklərdən biri də sosial müdafiəyə ehtiyacı olan və risk qrupu altında olan gənclərin, əsasən, yaradıcılıq potensialının reallaşması və onların sosial adaptasiyası, cəmiyyətə inteqrasiya olması ilə bağlı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Daha vacib dəyişikliklərdən biri "Gənclərin sağlamlığının qorunması və onların fiziki inkişafı" adlı maddədə öz əksini tapmışdır. Burada da zərərli vərdişlərə qarşı təbliğat, sağlam həyat tərzinin təbliğ olunması ilə bağlı maarifləndirmə işlərinin, habelə gənclər arasında ailə planlaşdırılmasına dair biliklərin artırılması, ağır xəstəliklərin profilaktikası və onların aradan qaldırılması üçün tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Başqa əsas məqamlardan biri 8-ci maddə ilə bağlıdır. Burada da məşğulluqla əlaqədar bir çox normalar təkmilləşdirilmişdir.

9-cu maddədə gənc ailələrə dövlət qayğısı ilə bağlı, ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi, erkən nikahların qarşısının alınması və yaxın qohumlar arasında nikahın mənfi nəticələrinin qarşısının alınması məqsədi ilə maarifləndirmə və bir çox digər tədbirlərin nəzərdə tutulması, düşünürəm ki, çox vacibdir.

Bunlarla yanaşı, 13-cü maddədə çox mühüm dəyişikliklərdən biri odur ki, məhz burada gənclərlə bağlı fəaliyyət göstərən obyektlər özəlləşdirildikdən sonra onların funksional təyinatının dəyişdirilməməsinə əvvəllər qanunvericilikdə 5 il idisə, indi isə 10 il müddətində yol verilir.

Ümumilikdə, qısa olaraq əsas dəyişikliklər və əlavələr bunlardan ibarətdir. Düşünürəm ki, gənclər siyasətinin əsas məqsədi əqli, fiziki, mənəvi cəhətdən gənclərimizin formalaşması, onların sosial problemlərinin həlli, hüuqla-

rının genişləndirilməsi və hüquqlarının qorunması ilə bağlıdır, onların hərtərəfli inkişafını, liderlik qabiliyyətinin formalaşmasını, idarəetmə imkanlarının genişlənməsini nəzərdə tutur. Mən inanıram ki, biz, bax, bu dəyişiklikləri, bu əlavələri qəbul etməklə gənclər siyasətinin daha da uğurlu olması üçün öz müsbət töhfələrimizi verə bilərik. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Təqdimat üçün çox sağ olun. 6 nəfər həmkarımız yazılıb. Bu, birinci oxunuşdur. Mən bir daha xahiş edirəm, konseptual yanaşın. Biz bütün qanun layihəsini ikinci oxunuşda müzakirə edə bilərik. Elmira Axundova.

**E.Axundova.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununa edilən dəyişikliklər, məncə, çox əhəmiyyətli və aktualdır. Bu dəyişikliklərin mahiyyəti, gördüyümüz kimi, sosial müdafiəyə ehtiyacı olan, risk qrupunda olan, gənc alimləri, tədqiqatçıları və digər təbəqələrdən olan gəncləri ön plana çəkməkdir. Bunların sosial müdafiəsi, sosial-iqtisadi və mədəni inkişafı üçün tədbirlərin həyata keçirilməsi, sosial müdafiəyə ehtiyacı olan aztəminatlı gənclərin sosial, mənzil, təhsil problemlərinin həlli və digər lazımi tədbirlərin həyata keçirilməsi kimi çox mühüm və cəmiyyətimiz üçün deyərdim, həyati əhəmiyyətli tədbirlərin reallaşdırılması həm dövlət, həm də gənclər siyasətini həyata keçirən qurum qarşısında əsas vəzifə və məqsəd kimi qoyulur. Mən, xüsusilə sosial müdafiəyə ehtiyacı olan, təhsili olmayan, işsiz, cəzaçəkmə yerindən azad edilmiş, risk qrupunda olan gənclərin sosial adaptasiyası üçün tədbirlərin həyata keçirilməsi kimi maddələri çox yüksək qiymətləndirirəm. Çünki biz – millət vəkilləri bu kateqoriyadan olan insanlarla tez-tez rastlaşırıq.

Təklif edilən dəyişikliklər şəxsən məni çox məmnun etdi. Bilirsiniz ki, bizim komitəmizdə, Milli Məclisin plenar iclaslarında olan çıxışlarımızda gənc ailələrə, ümumiyyətlə, gənclərə dövlət dəstəyinin gücləndirilməsi məsələsini dəfələrlə səsləndirmişik. Hətta bununla bağlı arzuladığımız qanun layihələri Milli Məclisə təqdim edilmişdir. Deməek olar ki, şəxsən mənim arzu etdiyim bütün məsələlər bu Qanunda öz yerini tapdı. Bunun üçün mən cənab Prezidentimizə dərin təşəkkürümü bildirmək istəyirəm.

Digər tərəfdən, mən çox istərdim ki, bu Qanun tezliklə qüvvəyə minsin və əsası da odur ki, bunun ətrafında yeni və əhatəli iş başlansın. Çünki indiyə kimi, gəlin, etiraf edək, Gənclər və İdman Nazirliyi gənclərlə çox fəal işlər aparsa da, müxtəlif tədbirlər görsə də, bunlar, əsasən, uğurlu, istedadlı, ön planda olan fəal gəncləri əhatə etmişdir. Lakin minlərcə peşəsi olmayan, 10 minlərcə işsiz, zərərli vərdişlərə yiyələnən, günlərini boş-boşuna çayxanalarda keçirən və bu kateqoriyadan olan digər gənclər nazirliyin və gənclər təşkilatının diqqətindən kənarda qalmışdılar. Mən özüm kəndlərdə belə gənclərlə tez-tez rastlaşıram və düzünü deyim ki, onların bir çox problemləri qarşısında bəzən aciz qalıram. Onlar, əsasən, iş istəyir, asudə vaxtlarını daha səmərəli keçirmək üçün imkan yaradılmasını tələb edirlər. Halbuki bu kəndlərdə nə iş yerləri, nə mədəni, nə də idman obyektləri normal fəaliyyət göstərir. Bir neçə misal çəkim: bir neçə il öncə mənim müraciətimdən, səylərimdən sonra Masallı rayonunun böyük Boradigah qəsəbəsində müasir idman mərkəzi tikilərək ərsəyə gətirilmişdir. Lakin alternativ enerji agentliyinin səlahiyyətində olan bu mərkəz hələ də tam istifadəyə verilməmişdir. Xeyli maliyyə vəsaiti

xərclənərək tikilən bu mərkəzdən sakinlər istifadə edə bilmirlər. Çünki bürokratik əngəllər və idarəçiliyin kimin əlində olacağı hələ də həll edilə bilmir. Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının tapşırığı ilə böyük maliyyə vəsaiti hesabına bölgələrimizdə yaradılan olimpiya kompleksləri də tam gücü ilə fəaliyyət göstərmirlər. Onların bir çoxunda qışda hovuzlarda isitmə sistemi olmadığından, ya da işləmədiyindən hovuzların suyu isidilmir. Oradakı xidmətlər ödənişli olduğundan istedadlı kənd cavanları üçün bunlar çox vaxt əlçatmaz olur və sair. Yaxud kəndlərin əksəriyyətində heç bir mədəni obyekt işləmir. İşləyənlər də, yəni mədəniyyət evləri dağılmaq üzrədir. Belə misalları başqa sahələrlə də bağlı gətirmək olar.

Ona görə hesab edirəm ki, bu qanun layihəsi gənclər siyasətində, xüsusilə sosial müdafiəyə ehtiyacı olan gənclərə münasibətdə ciddi bir dönüş haqda xəbər verir. Lakin, bu, ancaq işin başlanğıcıdır. Bu qanun layihəsinin həyata keçirilməsi həm böyük maliyyə vəsaitləri, həm bütün qurumların gənclərlə işinin tam, yeni, mütərəqqi əsaslarla qurulmasını, həm də bütün cəmiyyətin bu məsələlərə diqqətinin yönəlməsini tələb edir. Diqqətiniz üçün minnətdaram.

**Sədrlik edən.** Mən xahiş edərdim ki, qanun layihəsinə konseptual yanaşaq. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, cənab Sədr. Doğrudan da, çalışacağam ki, qısa danışım, bilirəm, həmkarlarım yorulub. Qanun layihəsinin müəlliflərinə öz təşəkkürümü bildirirəm. Amma düşünürəm ki, biz bəzi məsələlərə diqqət yetirməliyik.

Birincisi, 7-ci maddədə qeyd olunur ki, "Təhsil haqqında" Qanuna görə, "dövlət təhsil müəssisələrində təhsil alan gənclərə pulsuz tibbi xidmət göstərilir". Amma biz bilirik ki, dövlət təhsil müəssisələrində, həm pullu, həm

də pulsuz təhsil var. Özəl məktəblərdə də təhsil pulludur. Necə olur ki, həm pullu dövlət müəssisəsində, həm də özəl məktəbdə gənclər pul ödəyirlər, oxuyurlar, amma biz birinə pulsuz, digərinə isə pullu tibbi xidmət göstəririk. Bu məsələyə, hesab edirəm ki, aydınlıq gətirilməlidir. Ümumiyyətlə, bütün gənclərə pulsuz tibbi xidmət göstərilməlidir. Belə olsa, daha yaxşı olar. Yəni, hesab edirəm ki, biz bu məsələdə fərq qoymamalıyıq.

İkinci məsələ 5.7.1-ci maddə ilə – gənclərə tütün məmulatlarının və spirtli içkilərin satışı ilə bağlıdır. Oqtay müəllim, diqqətinizi bir məsələyə cəlb etmək istəyirəm. Xahiş edirəm, şəxsən özünüz bu məsələni nəzarətə götürəsiniz. Biz 2017-ci ildə "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanun qəbul etdik. Orada 9.1.4-cü maddədə qeyd olunur ki, tütün satışının bilavasitə və ya dolayı reklamı qadağandır. Eyni zamanda, biz 12-ci maddədə qeyd edirik ki, bütün TV-lərdə ayda 90 dəqiqə, onun 45 dəqiqəsi saat 17.30-dan 23.00-dək müvafiq icra orqanlarının iştirakı ilə birlikdə tütünün əleyhinə reklamlar yerləşdirilsin. Həmin çarxlar da Milli Televiziya və Radio Şurasına təqdim olunsun. Şəxsən mən televiziyaları izləyirəm və bu tipli reklamlara rast gəlmirəm. Hesab edirəm ki, ola bilsin, mən rastlaşmıram. Amma hər halda bu mənim diqqətimi cəlb etmir.

Oqtay müəllim, ən vacib olan məsələ nədən ibarətdir? Bakı şəhərində bütün köşklər universitetlərin, məktəblərin ətrafında, metroların çıxışında yerləşdirilib. Tütün məmulatlarının reklamının qadağan olunmasına baxmayaraq, onların ön şüşələrində xüsusi işıqlandırma ilə yalnız siqaretlər yerləşdirilib. Siqaretin üstündə yazılıb ki, siqaret çəkmək səhhətiniz üçün zərərlidir. Onun da üzərində yalnız siqaretin reklamı yerləşdirilir. Yəni hər kəs o köşklər-

dən birinin qarşısında dayanıb baxa bilər, onlar gecələr işıqlandırılır, ümumiyyətlə, insanları birbaşa çağırır. Bax, bizim Milli Məclisin yanında 20 nömrəli məktəbin qabağında köşk var. Bir dəfə mən onun qabağında dayandım, baxdım. Bu, reklamdır. Niyə mən "bu, reklamdır?" deyirəm. Azərbaycanda Dövlət Reklam Agentliyi var və bu Agentliyin işçiləri bir dəfə bizim ofisin qabağındakı supermarketə gəlmişdilər. Mən soruşdum, nə baş verir. Dedilər ki, bəs məcbur edirlər, supermarketin şüşələri rənglənsin, ona görə ki, içəridə satılan mallar görünür. Ya reklama görə pul ödəməlisiniz, ya da supermarketin şüşələrini rəngləməlisiniz ki, içəridəki mallar bayırdan görünməsin. Onda necə olur, bu köşklərin arxasında duran, özü də sıra ilə düzülən, hər cür markadan olan siqaretləri yığışdırmırlar? Deməli, burada hansı isə korrupsiya faktları, korrupsiya əlamətləri var və bu siqaret tam reklam olunur. Yaxud spirtli içkilərin də satışı qadağandır, amma bütün spirtli içki satan mağazalarda şüşələrin arxasından bütün növ spirtli içkiləri düzüblər. Ondan böyük reklam nə ola bilər ki? Şəhərin mərkəzində, hər yerdə var. Yəni Dövlət Reklam Agentliyi bunun qarşısını almırsa, deməli, həmin şəxslərdən rüşvət alır.

Biz deputat həmkarlarımız ilə birlikdə bir dəfə Fransada idik. Həmkarlarımızdan biri, adını çəkmirəm, siqaret almaq istəyirdi. Bir supermarketə girdik, dedilər ki, siqareti buradan ala bilərsiniz. Gəzirik, siqaret yoxdur. Axırda soruşduq ki, bəs siqareti harada satırlar? Dedi o açıq yerdə qoyulmur. Yalnız yaxınlaşıb soruşduqda, qapalı yerdən onu çıxarıb sizə verə bilərlər və biz bu qaydada həmin siqareti aldıq. Amma bizdə siqaretin reklamı qadağan olunsa da, o, məktəblərin yanında, metroların çıxışında, gənclərin ən çox gəzdiyi bulvarda, hər yerdə var.

Köşklərin ön şüşələri yalnız siqaret ilə bağlanıbsa, bundan böyük reklam ola bilər ki?

Biz bayaq bələdiyyələr haqqında danışırdıq. Mən düşünürəm ki, bu reklamlar bələdiyyələrə verilməlidir ki, onların maliyyə mənbələri olsun. Hazırda yalnız bələdiyyələrin mülkiyyətində olan obyektlərin üzərinə reklam vurulduqda həmin reklamın müəyyən hissəsi bələdiyyələrə ödənilir. Buna görə xüsusi bir dövlət agentliyi yaratmağa ehtiyac yoxdur ki, hələ onların saxlanılmasına da bu qədər xərc çəkilsin. Məncə, o qurum ləğv olunmalıdır və bu reklamların yerləşdirilməsi səlahiyyətləri də bələdiyyələrə verilməlidir. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Qüdrət müəllim, gənclərdən reklamlara keçdik. Tahir Rzayev.

**T.Rzayev.** Çox sağ olun, hörmətli Sədr. "Gənclər siyasəti haqqında" Qanuna edilmiş dəyişiklikləri mən ölkə rəhbərinin gəncliyə göstərdiyi qayğı və diqqətin ifadəsi kimi qiymətləndirirəm. Əlbəttə ki, bu dəyişikliklər bilavasitə gənclərin fəallığının yüksəldilməsinə, onların yaradıcılığının artırılmasına xidmət edir. Dəyişikliklərdə gənclərin işinin təhlilinə, planlaşdırılmasına, qiymətləndirilməsinə, bu sahədə mütəxəssislərin hazırlanmasına, əlavə təhsilin təşkil edilməsinə, yüksək nailiyyətlər əldə etmiş şəxslərin təbliğinə, gənc alim və tədqiqatçıların elmi fəaliyyətinin dəstəklənməsinə, eləcə də aztəminatlı gənc ailələrin sosial müdafiəsinin gücləndirilməsinə böyük önəm verilir ki, bu, çox təqdirəlayiq haldır. Hörmətli Ülvi müəllim də dedi, bu gün respublikada gənclər siyasəti ilə məşğul olan bir çox qurumlar fəaliyyət göstərir. Ancaq mən istərdim ki, bu qurumlar sistemli fəaliyyət göstərsinlər, bir-birini əlaqələndirsinlər və gənclərin tərbiyəsi ilə ciddi, daha yaxından məşğul olsunlar.

Burada xatırladıldı ki, bu gün sosial şəbəkələr, informasiya texnologiyaları, media vasitələri bizim Azərbaycan gənclərinin üzlərinə açıqdır. Dəyişikliklərdə də bu imkanların artırılması nəzərdə tutulur. Digər tərəfdən bu vasitələrdən məqsədyönlü istifadə edilməsi qarşıya məqsəd kimi qoyulur. Mən çox təəssüf edirəm ki, bu gün bu sahədə bizim gənclərin nöqsanları çoxdur. Bir çox gənc söyüşü, təhqiri, insanların şərəf və ləyaqətini alçatmağı bir mübarizə metodu kimi qəbul edir. Ancaq bu, həddindən artıq yolverilməzdir. Bizim mənəviyyatımız üçün, əxlaqımız üçün ziyanlıdır, bu, insanları bir-birinə qarşı düşmənçiliyə aparır. Elə bilirəm ki, bizim gənclərlə məşğul olan təşkilatlarımız bu sahədə öz sözlərini deməlidir və yaxşı haldır ki, bundan sonra Qanunda da bu sahəyə nəzarətin gücləndirilməsi nəzərdə tutulur. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qənirə Paşayeva.

**Q.Paşayeva.** Hörmətli Sədr, hörmətli millət vəkilləri, mən də layihəni dəstəkləyəcəyəm. Çünki hesab edirəm ki, bəzi həmkarlarımın da vurğuladığı kimi, bu layihə çox vacib məsələləri özündə əks etdirir və bu gün gənclərimiz üçün çox vacib istiqamətlərdə önəmli işləri nəzərdə tutduğuna görə, təbii ki, hamımız bunu dəstəkləyəcəyik. Özəlliklə çox önəmlidir ki, bu qanun layihəsində istedadlı, təhsilli gənclərlə bərabər, həyatın hansı isə pilləsində səhv yola düşmüş, zərərli vərdişlərə qurşanmış gənclərin xilas edilməsi və ya gənclərimizin bu zərərli vərdişlərə tutulmaması üçün tədbirlərin görülməsi məsələləri də öz əksini tapır. Bunlar da gənclərimiz arasında tütündən istifadə edənlərin, narkomaniyaya qurşananların, qumar oyunlarından istifadə edənlərin sayının artmamasına təsirini göstərəcək addımlardır. Burada, eyni zamanda, o gənclərimizi bu

bəlalardan xilas etməyə yönələn addımlar nəzərdə tutulub.

Bəzi həmkarlarım kimi mən də hesab edirəm ki, bu önəmli Qanunda nəzərdə tutulan maddələrin həyata keçirilməsində müvafiq qurumlarımız daha fəal olmalıdır və onların məsuliyyət məsələləri də öz əksini tapmalıdır. Məsələn, Qanunda da öz əksini tapan 18 yaşından aşağı gənclərə tütün məhsullarının satılmaması haqqında məsələ bizim digər qanunvericilik aktlarında özünü ehtiva etsə də, çox təəssüf ki, biz buna əməl edilməsi məsələsini görə bilmirik. Bir az öncə Qüdrət müəllimin vurğuladığı bir məsələ var idi ki, siqaret satılan köşklər məktəblərin düz yaxınlığındadır. Onların məktəbə hansı məsafədə olması haqqında məsələlər qanunla öz əksini tapıb, amma bu günə qədər yerinə yetirilmir. İndi bu Qanunumuzda həmin məsələ bir daha öz əksini tapır və mən inanıram ki, buna diqqət ediləcək.

Eyni zamanda, 18 yaşına çatmamış uşaqlara idman-mərc oyunlarında iştirakının birbaşa və ya dolayı yolla qadağan edilməsi, buna yol verilməməsi ilə bağlı müvafiq qurumların ciddi şəkildə məsuliyyətli olmasının nəzərdə tutulması çox önəmlidir. Çünki bu da digər ciddi bir məqamdır. Biz hər ay ailələrdən məktublar alırıq. Uşaqların bu oyunlarda, qumar-mərc oyunlarında, idman-mərc oyunlarında iştirakı necə böyük ailə faciəsinə çevrilə bildiyi məlum olur. Ona görə bu məsələlərə də diqqətin ayrılması xüsusi önəm daşıyır.

Bölgələrimizdə bu layihəyə ciddi ehtiyac var. Çünki gənclərimizin həm məşğulluğu ilə, asudə vaxtlarının təşkili ilə, iş ilə bağlı məsələlərinə dəstək və sair lazımdır. Yaradıcı gənclərə dəstək istiqamətində, valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı, bir sözlə, gəncliyimizlə əlaqədar çox önəmli məsələlər qanun layihəsində

əks olunub. Ona görə biz bunu dəstəkləyirik. Gənc alimlərimizin, gənclərin bütün sahələrdə vəziyyətinin yaxşılaşdırılması, təbii ki, dövlətimizin əsas prioritetidir, cənab Prezidentin də siyasətində xüsusi yer tutan bir məsələdir. Ona görə cənab Prezidentin gənclərlə görüşündə də verdiyi çox önəmli mesajlar var idi və o mesajlar da bu layihədə öz əksini geniş şəkildə tapır. Ona görə biz böyük məmnuniyyətlə dəstəkləyəcəyik. Həmkarlarımı da dəstəkləməyə çağırıram.

**Sədrlik edən.** Sağ olun. Cavid Osmanov.

**C.Osmanov.** Təşəkkür edirəm, Oqtay müəllim. Hörmətli millət vəkilləri, mən də bu qanun layihəsində nəzərdə tutulmuş bütün dəyişiklikləri və yenilikləri dəstəkləyirəm və hesab edirəm ki, çox vacib və vaxtında olan dəyişikliklərdir. Komitə sədri Ülvi müəllim dəyişikliklər barədə çox geniş məlumat verdi. Gənclərin məşğulluğu, onların inkişafı, sosial müdafiəyə ehtiyacı olan gənclərə dövlət dəstəyinin verilməsi, mənzil-məişət problemlərinin həlli, təhsil, idarəetmə və vətəndaş cəmiyyətində gənclərin iştirakının artırılması və sair dəyişikliklər burada nəzərdə tutulmuşdur. Biz bilirik ki, möhtərəm cənab Prezidentimiz fevral ayının 1-də gənclərin növbəti forumunda gənclər qarşısında çox geniş proqramlı nitq söylədi. Onlara, xüsusən öz həyatı haqqında, 1990-cı illərdə gənclik dövründə, o ailənin başına gələn hadisələrin hər birini danışdı və bu, bizim gənclərimizə çox böyük tövsiyə idi, töhfə idi. Hər birimiz bilirik ki, bu gün Azərbaycan gəncliyi bütün Azərbaycan xalqı kimi, cənab Prezidentimizin ətrafında sıx birləşib və onu hər zaman dəstəkləyir.

Mən, burada iki maddəyə daha çox diqqət yetirmək istəyirəm.

4.0.19-cu maddədə qeyd olunur:

“Gənclər arasında hər növ ekstremizmin və radikalizmin qarşısının alınması”,

4.0.21-ci maddədə nəzərdə tutulur:

“Gənclərin inkişafı, yeni biliklərə yiyələnməsi məqsədi ilə informasiya texnologiyalarının, sosial şəbəkə və multimedia vasitələrinin istifadə sahəsində imkanların artırılması, bu sahədə qanunvericiliyin tələblərinə riayət edilməsi, insanların şərəf və ləyaqətinin və şəxsi həyatının toxunulmazlığı, hüququnun qorunması nəzarətinin təmin edilməsi”.

Çox təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, bu ilin əvvəlində Milli Şura tərəfindən keçirilən kiçik bir mitinqdə bizim gənclərimiz, hətta bizdə olan məlumata görə, orada təkcə gənclər deyil, 18 yaşı olmayan, səsvermə hüququ olmayan uşaqlar da iştirak edirdilər. Orada dövlətimizə, dövlətçiliyimizə qarşı çağırışlar nəzərdə tutulmuşdu.

Eyni zamanda, bilirik ki, saxta profillər vasitəsi ilə ölkə daxilində və ayrı-ayrı Qərb ölkələrində üzdəniraq, belə deyək, “azərbaycanlı” adından iştirak edən bəzi ünsürlərin də ölkə başçısına, onun ailəsinə, bütün deputatlara, məmurlara, ümumilikdə, bütün Azərbaycan xalqına qarşı dayanmadan təhqirlər yağdırırlar. Biz inanırıq ki, bunun qarşısı çox ciddi şəkildə alınacaqdır. Mən özüm hüquqşünas deyiləm, Cinayət Məcəlləsində belə qanunların nəzərdə tutulduğunu bilmirəm, tutulmayıbsa da, biz gələcəkdə bu Məcəllədə belə qanunların əksini tapmasını nəzərə almalıyıq və bu cür ünsürlərə qarşı vaxtında cinayət işi açılmalıdır. Bir daha söz verdiyiniz üçün təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, 24-cü məsələyə – “Gənclər siyasəti haqqında” Qanuna dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.55 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Qanun birinci oxunuşda qəbul edildi.

Növbəti gələn qanunlar ikinci oxunuşlardır. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı buyursun Rafael Hüseynov.

**R.Hüseynov,** *Milli Məclisin Mədəniyyət komitəsinin sədri.*

Hörmətli millət vəkilləri, Azərbaycanın kitabxana həyatında son dərəcə əhəmiyyətli yeniliklər baş verir. Cənab Prezidentin yanvar ayının 15-də imzaladığı yeni mütərəqqi fərman ölkənin bütün ərazisini əhatə edən kitabxana sisteminin yaradılmasını nəzərdə tutur və "Kitabxana işi haqqında" Qanuna təklif edilən dəyişikliklər ölkənin kitabxana şəbəkəsinin elektron sistemə keçməsi ilə bağlıdır. Ona görə də sizi bu mütərəqqi dəyişikliklərə səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinin ikinci oxunuşudur, ilk növbədə layihəni əsas kimi qəbul etməliyik. Xahiş edirəm, qanun layihəsinin əsas kimi qəbul olunmasına münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.57 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Sağ olun, əsas kimi qəbul edildi.

Əflatun Amaşov.

**Ə.Amaşov.** Hörmətli cənab Sədr, hörmətli həmkarlar, əziz media nümayəndələri, "Kitabxana işi haqqında" Qanuna təklif olunan dəyişikliyi vacib sayıram və dəstəkləyirəm. Bu dəyişiklik kitabxanaların elektron sistemə keçməsi ilə bağlıdır. Daha mühüm bir dəyişiklik kitabxanaların pulsuz, məcburi nüsxələrlə təchizatı ilə əlaqədardır. Hesab edirəm ki, hər iki məsələ olduqca vacibdir.

Azərbaycanda müxtəlif mətbəə və nəşriyyatlarda kitablar çap olunur. Ancaq təəssüf ki, onların kitabxanalara çatdırılması işi düzgün qurulmayıb. Bu sahədə qanunun tələbləri əksər hallarda gözlənilmir. Burada məsuliyyətin artması imkan verəcək ki, kitabların məzmununa diqqət yetirilsin.

Biz müxtəlif dövrlərdə bəzi anti-milli qüvvələrin öz məqsəd və mənafelərini yaymaq üçün kitablar buraxdıqlarının şahidi olmuşuq. Təəssüf ki, nəşriyyat və mətbəələr məsələyə ciddi önəm vermir. Əslində onların belə bir mexanizmi də yoxdur ki, müvafiq yoxlama işləri aparsınlar.

Yeri gəlmişkən, bir məsələyə də toxunmaq istərdim. Bu da kitabların qiyməti ilə bağlıdır. Qiymətlər çox bahadır, əsasən də, ölkəyə kənardan gətirilmiş kitabların qiyməti yüksəkdir. Məlumatlara görə, hazırda ölkəyə il ərzində 200 minə yaxın kitab gətirilir. Sovet dövrü ilə müqayisədə bu rəqəm dəfələrlə azdır. Qiymətlərə gəldikdə isə təsəvvür edin ki, kitab Azərbaycana gətirilərkən 7 faiz gömrük, 18 faiz əlavə dəyər vergisi tutulur. Üstəlik, satış zamanı gəlir

əldə etmək üçün təqribən 20 faiz də əlavə olunur. Bundan başqa, satış mərkəzləri müvafiq dövlət qurumlarına hesabat verərkən onlar yenidən 18 faizlə vergi ödəməli olurlar. Gəlin, hesablayaq. 7 + 18 + 20 +18 = 63, lap olsun 60. Təsəvvür edin ki, oxucu kitabı əldə etmək üçün nə qədər pul xərcləməlidir. Bəzi ölkələrdə çap məhsulları bütün növ vergilərdən azaddır. Mən həmkarım Fazil Mustafanın burada səsləndirdiyi təklifi dəstəkləyirəm. Təklif edirəm ki, bütün çap məhsulları üzərindən, bütün qəzetlərin, jurnal və kitabların istehsalından, ölkəyə gətirilməsi üzərindən əlavə dəyər vergisini götürək. Diqqətinizə görə sağ olun, minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, qanun layihəsinə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.00 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 26-cı məsələ Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi barədədir, bu da ikinci oxunuşdur. Buyursun Hadi Rəcəbli.

**H.Rəcəbli,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Sağ olun, Oqtay müəllim. Əmək Məcəlləsinin 3-cü və 14-cü maddəsinə, Cəzaların İcrası Məcəlləsinin də 90–94-

cü maddələrinə dəyişiklik edilir. Birinci oxunuşda biz bunu keçmişik, yoldaşlar müzakirədə bu məsələlərlə razılaşdılar. Burada elektron hökumət elementləridir, mərkəzləşdirmədir və düşünürəm ki, biz şəffaflıq baxımından, digər baxımdan çox faydalana biləcəyik. Ona görə xahiş edirəm, buna səs versinlər. Sağ olun.

**Sədrlik edən.** İlk növbədə, ikinci oxunuşda əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.02 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul olundu.

İndi qanun layihəsinə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.02 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

27–29-cu məsələlər də bir zərfdə gəlib, üçü də ikinci oxunuşdur. 27-ci məsələ "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, ikinci oxunuşda komitədə dəyişikliklər təklif edilməmişdir. Dəyişikliyin mahiyyəti barədə biz keçən dəfə iclasda kifayət qədər ətraflı məlumat vermişdik. Ona görə də millət vəkillərindən qanun layihəsinə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, gündəliyin 27-ci məsələsinin əsas kimi qəbul olunmasına münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.03 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi 27-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.04 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Gündəliyin 28-ci məsələsi barədə, buyurun, Ziyad müəllim.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişik-

liklər edilməsi barədə məsələ müzakirə olunmuş, heç bir dəyişiklik, düzəliş təklif edilməmişdir. Millət vəkillərindən qanun layihəsinə səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Xahiş edirəm, əsas kimi qəbul olunmasına münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.05 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Qanun layihəsinə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.06 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Gündəliyin 29-cu məsələsi "Patent haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyurun, Ziyad müəllim.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə məsələ komitədə müzakirə edilmiş, dəyişiklik və tövsiyələr təklif edilməmişdir. Millət vəkillərindən qanun layihəsinə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, ilk növbədə qanun layihəsini ikinci oxunuşda əsas kimi qəbul edək.

| **Səsvermənin nəticələri** | (saat 15.07 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi qanun layihəsinə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.07 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Növbəti 30-cu məsələ Azərbaycan Respublikasının Dövlət gerbinin istifadəsi qaydaları haqqında qanun layihəsinin ikinci oxunuşudur. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun, cənab Sədr. Hörmətli Oqtay müəllim, hər üç layihə – 30, 31 və 32-ci məsələlər komitəmiz tərəfindən hazırlanıb, Milli Məclisə təqdim olunub. İcazə versəniz, məruzə edərdim.

Birinci oxunuş zamanı Dövlət gerbi və Dövlət himni haqqında qanunları birgə məruzə etmişdim. Çünki bu

qanun layihələri quruluşca tam oxşardırlar. Komitə və işçi qrupu bu layihələr üzərində çalışarkən vaxtı ilə "Azərbaycan Respublikasının Dövlət bayrağından istifadə qaydaları haqqında" Qanunu da rəhbər tutmuşdur. Çünki dövlət rəmzlərindən istifadə qaydalarının ümumi prinsipləri, əlbəttə ki, eynidir. Bu baxımdan birinci oxunuşdan sonra hörmətli Ziyafət müəllimin təklifi nəzərə alındı və bu qanunlar da sadəcə Dövlət gerbi və Dövlət himni haqqında deyil, onlardan – Dövlət gerbindən və himndən istifadə qaydaları haqqında qanun adlanmağa başladı. Hesab edirəm, beləliklə, "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Qanunda etdiyimiz kimi, o qanunvericiliyin də tamamilə dəqiq bir nizamını yaratdıq.

Ümumiyyətlə, mən həm komitə üzvlərinə, həm də Milli Məclisin üzvlərinə təşəkkürümü bildirmək istəyirəm ki, hər iki layihə ilə bağlı komitə iclasında və plenar iclasda dəyərli təkliflər irəli sürülmüşdür. Həmkarlarımız Fəzail Ağamalının 5-ci maddə ilə bağlı, Hikmət müəllimin Məmmədovun 6.4-cü maddə ilə bağlı, Tahir Kərimlinin Dövlət gerbinin təsvirindən vətəndaşların istifadə etməsi qaydaları ilə bağlı, o cümlədən Rafael Cəbrayılovun 7-ci maddə ilə bağlı təklifləri nəzərə alınmışdır.

"Azərbaycan Respublikasının Dövlət himnindən istifadə qaydaları haqqında" Qanunda maraqlı təkliflər olmuşdur. "Siyasi partiyalar" sözlərinin 5-ci maddəyə əlavə olunmasını Sabir müəllim Hacıyev təklif etmişdir. O cümlədən Dövlət himninin bütün hallarda tam ifa edilməsi ilə də bağlı təklif var idi. Bu təklifi Tahir Kərimli etmişdir. Bu təkliflər də işçi qrupu tərəfindən birinci oxunuşdan sonra nəzərə alınmışdır.

Eyni zamanda, bilirsiniz ki, biz komitələrə də müraciət etmişik, indi ikinci oxunuşda səslənəcək və gələcəkdə

bizim Konstitusiyaya, ümumi qanunvericiliyimizə uyğun olan bütün təkliflər işçi qrupu tərəfindən nəzərə alına bilər. Diqqətinizə görə çox sağ olun. Bir daha təşəkkür edirəm ki, məhz sizin dəyərli təklifləriniz nəticəsində bu qanun layihələri bu cür mükəmməl hazırlana bilmişdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Sahib Alıyev.

**S.Alıyev.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr, dəyərli həmkarlar! Mən birinci oxunuşda bütövlükdə qanun layihəsini bəyəndiyimə görə ikinci oxunuşda buna dair təkliflərimin olacağını demişdim. Vaxt uzanır, ona görə də bir neçə təklifimi bildirmək istəyirəm. Birincisi, "Azərbaycan Respublikasının Dövlət gerbi haqqında" Qanunla bağlı onu demək istəyirəm ki, biz müxtəlif tədbirlərdə tez-tez də olmasa, aradabir rastlaşırıq. Bəzən ayrı-ayrı qurumların və ya ayrı-ayrı şirkətlərin gerbi Dövlət gerbindən böyük görünür, yaxud elə hallara rast gəlinir ki, müəyyən tədbirlərdə başqa dövlətlərin gerbi, bizim Dövlət gerbindən böyük təsir bağışlayır. Bununla bağlı bir maddənin əlavə edilməsini istəyərdim ki, "Azərbaycan ərazisində keçirilən tədbirlərdə heç bir dövlətin gerbi və ya heç bir təşkilatın, qurumun gerbi Azərbaycanın Dövlət gerbindən böyük ola bilməz". O şəkildə səciyələnə bilməz, çünki bu bizim dövlətimizin rəmzidir. Bu mənim təklifimdir.

Himnimiz ilə də bağlı bir məsələni vurğulamaq istəyirəm. Burada Azərbaycanın Dövlət himninə hörmətdən və onun təbliğindən danışılır. Təbii ki, birinci hörmət ondan başlanır ki, sən hörmət etdiyini gərək tanıyasan, yaxından dərk edəsən, biləsən, mahiyyətinə varasan. Buna görə də bizim Dövlət himnimizi hamının bilməsi çox vacibdir. Bu da ilk növbədə məktəblərdən başlayır. Mən təklif edirəm ki, bir çox ölkələrdə, məsələn, Amerika Birləşmiş Ştat-

larında, qardaş Türkiyədə, Hindistanda, Çində olduğu kimi bizdə də məktəblərin açılışına Dövlət himni ilə başlanılsın.

Mən bir məsələni qeyd etmək istəyirəm ki, Amerika Birləşmiş Ştatlarının gücü sadəcə onun hərbi və iqtisadi potensialı ilə deyil, eyni zamanda, onunla ölçülür ki, bu ölkənin məktəblərində hər səhər Dövlət bayrağı qaldırılır. Düzdür, bəzi səbəblərdən himn oxunmur, çünki aparılan sorğular göstərir ki, əhalinin 61 faizi Dövlət himnini bilmir. Amma tarixdə ən amansız vətəndaş savaşı keçmiş, rasizmin ən ağır formasını yaşamış və aborigen xalqlara qarşı ən ağır cinayətlər törədilmiş bir ölkədə dövlət rəmzlərinə bu sayğı indi bir amerikalılıq formalaşdırıb və hər kəs, hər bir vətəndaş onunla fəxr edir. Mən fikirləşirəm ki, burada bu məsələnin böyük rolu var. Ona görə əgər belə bir maddə mümkün deyilsə, təbliğatla, maarifləndirmə ilə bağlı təklifim var. Bizdə ənənəvi olaraq dinimizə bağlılıqda, dinimizin təbliğində bir hafizlik yarışması vardır. Bunun arxasında nəyin dayandığını hər kəs bilir. Amma, eyni zamanda, Təhsil Nazirliyi səviyyəsində orta məktəblər arasında Dövlət himinin həm solo, həm də xor şəklində, belə deyək, yarışmasını keçirmək olardı və bu, yetişməkdə olan gənc nəsildə musiqiyə bir növ ciddi yanaşmanı formalaşdırardı. Məncə, məsələnin bu tərəfinə diqqət yetirmək ən azından pis olmazdı. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Gövhər Baxşəliyeva.

**G.Baxşəliyeva.** Çox sağ olun, Oqtay müəllim. Mən, təbii ki, qanun layihəsinə səs verəcəyəm. Mənim təklifim yalnız bir məsələyə – 6.1-ci maddəyə aiddir. Mən düşünürəm ki, burada “partitura” sözü artıqdır. Bu sözü yazmaq lazım deyil. Partitura çoxsəsli musiqi əsərinə aid

edilir. Partiturada operada duet oxunanda, yaxud musiqi əsərini üç nəfər növbə ilə ifa edir. Müəyyən bir mahnıda partitura sözü işlənilməməlidir. İstisna ola bilər, müəllif özü qeyd edibdir ki, əvvəl müəyyən hissə bir səs ilə oxunulur, o biri hissə başqa bir səs ilə başqa bir şəxs tərəfindən ifa olunur. Onda başqa məsələ. Amma burada birsəsli musiqi əsəridirsə, hətta xor eyni vaxtda ifadə edir. Ona görə burada "partitura" sözünü işlətmək düzgün deyil. İstənilən izahlı lüğəti açsanız, görərsiniz ki, partitura çoxsəsli musiqi əsərinə aiddir. Yəni partitura operanın ssenarisidir, belə demək mümkündür. Musiqi əsərinin ssenarisidir. O, burada tələb olunmur. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Ziyafət Əsgərov.

**Z.Əsgərov.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli deputat həmkarlar! Əli müəllim, 6-cı maddə ilə bağlı bir-iki təklifim var. 6.1-ci maddədə "Milli Məclisin rəsmi nəşrlərində" sözləri qeyd olunur. Axırıncı hissəyə baxın. Hesab edirəm ki, orada "müvafiq icra hakimiyyətinin" də olmalıdır. Mən konkret olaraq ölkə Prezidentini nəzərdə tuturam. Bilirsiniz ki, Prezidentin də rəsmi nəşrləri, qanunlar toplusu olur. Bax, belə bir qanunlar toplusu buraxılır. Cənab Prezidentin rəsmi nəşri hesab olunur. Eyni zamanda, fərman və sərəncamlar da rəsmi nəşr hesab olunur. Ona görə, düzdür, biz indi burada qanunda birbaşa göstərə bilmirik. Amma müvafiq icra hakimiyyəti orqanının rəsmi nəşridir. Bu bir.

Sonra 6.2-ci maddədə qeyd olunur ki, Azərbaycan Respublikasının Dövlət gerbinin təsvirindən istifadə qaydaları Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilə bilər. Yadınıza salmaq istəyirəm ki, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 64-cü maddəsinə görə "edilə bilər", "yol verilir", "istisna hallar-

da”, “zərurət olduqda” – məzmunu bu cür qeyri-müəyyən olan cümlələr, ifadələr işlədilmir. Xahiş edirəm, onu da nəzərə alın.

Bir də, Əli müəllim, 6.4-cü maddəyə baxın. Hər halda bu, vətəndaşlar, fiziki şəxslər üçündür. “Dövlət gerbinin təsvirindən vətəndaşlar istifadə edə bilər”. Burada “edə bilər” ifadəsi, əslində, qanun dili deyil. Biz onu çıxara da bilərik. Çünki qanun qadağan etmirsə, istənilən vətəndaş bayrağından da, gerbindən də istifadə edə bilər. Burada qeyri-adi bir şey yoxdur.

Bir də Dövlət himni ilə bağlı 5.1.3-cü maddədə qeyd olunur ki, Azərbaycan Respublikası Milli Məclisinin sessiyalarının başlanması və qurtarması zamanı Dövlət himni ifa olunur. Buraya, xahiş edirəm, “növbədənkənar sessiyaları” da əlavə edək. O zaman da Dövlət himni ifa olunur.

Bir də 5.3-cü maddə. Keçən dəfə yadınızdadırsa, mən bu məsələni qaldırmışdım. İndi bu məsələ yenə də açıq qalır. Yəni Dövlət himni səslənərkən hər bir Azərbaycan vətəndaşı ayaq üstə farağat durmalıdır, yoxsa əlini belə, necə istəsə qoya bilər? Bu məsələyə aydınlıq gətirək. Bu, çox ciddi məsələdir.

Burada bir cümlə yazmısınız. Deməli, “Dövlət himnini mətninə uyğun olaraq ayaq üstə sona qədər oxumalıdırlar”. Əgər biz Dövlət himnini səsləndiririksə, onu hamının oxuması vacibdirmi? Ya necə oxuyacaqlar, uca səslə, ya pəs səslə? Bu məsələ də aydın deyil. Xahiş edirəm, ona aydınlıq gətirək. Çünki ola bilməz ki, Dövlət himni səslənir, biri farağat durur, biri əlini belə qoyur. Burada vahid bir sistem olmalıdır. Bu qədər. Çox sağ olun.

**Sədrlik edən.** Hörmətli millət vəkilləri, xahiş edirəm, gündəliyin 30-cu məsələsinə – “Azərbaycan Respublikasının Dövlət gerbinin istifadəsi qaydaları haqqında” Qanuna

ikinci oxunuşda əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.20 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Bu qanun layihəsi ayrıca qanun layihəsidir. Dəyişiklik deyil. Ona görə biz bunları maddə-maddə, ya fəsil-fəsil səsə qoymalıyıq.  Qanun layihəsi 9 maddədən ibarətdir. Dördünü birgə, beşini də birgə səsə qoyaq. Etiraz yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, 1–4-cü maddələrə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.21 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

5–9-cu maddələrə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.21 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

İndi isə qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.22 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Eyni ilə "Dövlət himni haqqında" Qanunu, ümumilikdə, əsas kimi qəbul eləməyə, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.22 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Bu qanun da 9 maddədir. Bunu da eyni ilə dördü birgə, beşi birgə səsə qoyaq. 1–4-cü maddələrə münasibət

bildirək, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 15.23 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
5–9-cu maddələrə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.24 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
İndi qanun layihəsinə ikinci oxunuşda bütövlükdə, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.24 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 32-ci məsələsi Milli Məclisin komitələri haqqında qanun layihəsidir. Bu da ikinci oxunuşdur. Xahiş edirəm, əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.25 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Xahiş edirəm, qanun layihəsinə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.25 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Hörmətli millət vəkilləri, biz gündəliyin 12-ci məsələsini müzakirə etdik. 5 məsələ birgə idi – Türkmənistanla müqavilələr. 12-ci məsələ səsə qoyulmayıb. Xahiş edirəm, gündəliyin 12-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.26 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
Bugünkü iclasımız sona çatdı. Sağ olun.